HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ VN



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 25 (665) ▪ 3 iyul 2013 www.vergiler.az Qiymәti: 40 qәp.

# Prezident İlham Əliyevin Şirvan şəhərinə səfəri

*İyulun 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şirvan şəhərinə səfərə gəlmişdir. Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin Şirvan şəhərinin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstəsi qoymuşdur.*



Prezident İlham Əliyev Şirvana səfəri çərçivəsində əvvəlcə «Cənub» Elektrik Stansiyasının açılışında iştirak etmişdir. Dövlətimizin başçısına məlumat verilmişdir ki, son illər Azərbaycanda elektroenergetika sisteminin inkişafı ilə bağlı mühüm tədbirlər icra olunmuşdur. 2007-ci il dekabrın 24-də Prezident İlham Əliyevin iştirakı ilə təməli qoyulan «Cənub» Elektrik Stansiyasında həyata keçirilən işlər bunun bariz nümunəsidir.

Tikintisində 800 nəfərin çalışdığı elektrik stansiyası fəaliyyətə başladıqdan sonra burada 215 nəfər daimi işlə təmin ediləcəkdir. Ölkənin cənub bölgəsində 50 il əvvəl istismara verilmiş «Şirvan» Elektrik Stansiyası istismar müddətini iki dəfə başa vurduğuna görə Prezident İlham Əliyevin 2005-ci ildə imzaladığı sərəncamla Şirvan şəhərində «Cənub» Elektrik Stansiyası inşa edilmişdir. Gücü 780 meqavat olan stansiyanın idarəetmə mərkəzində yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyev «Cənub» Elektrik Stansiyasını işə salmışdır.

Prezident İlham Əliyev Şirvan-Muğan qrup su kəmərindən Şirvan şəhərinə içməli suyun verilməsi mərasimində də iştirak etmişdir. Bildirilmişdir ki, Şirvan-Muğan qrup su kəmərinin bir hissəsinin istismara verilməsi ilə Şirvan şəhərinin içməli sudan əziyyət çəkən Yeni yaşayış massivinin problemi həllini tapacaqdır. Qeyd olunmuşdur ki, Şirvan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasının ilkin layihəsi də hazırdır. Layihənin Azərbaycan hökuməti ilə Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin birgə maliyyələşdirdiyi «Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi»nə uyğun olaraq reallaşdırılması nəzərdə tutulmuşdur.

Dövlətimizin başçısı həmin gün Şirvan Olimpiya İdman Kompleksinin açılışında iştirak etmiş, kompleksin rəmzi açılışını bildirən lenti kəsmişdir. Bu kompleksin təməli Prezident İlham Əliyevin 2010-cu ilin aprelində Şirvana səfəri zamanı qoyulmuşdur. Dövlətimizin başçısına məlumat verilmişdir ki, ümumi sahəsi 4,5 hektar olan Olimpiya İdman Kompleksinin həyətində geniş abadlıq-quruculuq işləri görülmüşdür. Burada idmanın bir çox növləri ilə məşğul olmaq üçün hərtərəfli şərait yaradılmışdır.

Dövlətimizin başçısına bildirilmişdir ki, kompleksdə müxtəlif tədbirlərin keçirilməsi üçün konfrans zalı və inzibati otaqlar mövcuddur. Burada müasir idman qurğuları ilə təchiz edilmiş trenajor, cüdo, güləş, boks zalları, sauna və bilyard otağı da fəaliyyət göstərəcəkdir. Bu müasir kompleksin idman zalında 980 tamaşaçı yeri vardır. Zalda idmançılar mini-futbol, voleybol və basketbol ilə məşğul olacaqlar. Burada istər yerli, istərsə də beynəlxalq əhəmiyyətli idman tədbirləri keçirmək mümkün olacaqdır.

Şirvan şəhərinə səfəri çərçivəsində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Sənayesi Nazirliyinin «Üfüq» İstehsalat Birliyinin Şirvan «Araz» zavodunun tərkibindəki döyüş sursatlarının utilizasiya mərkəzinin açılışında da iştirak etmişdir. Bildirilmişdir ki, əksər hallarda sursatların açıq şəkildə partlatma və yandırma üsulları ilə məhv edilməsi atmosferi çirkləndirir və ekoloji problemlər yaradır. Utilizasiya prosesinin daha mütərəqqi və təhlükəsiz şəkildə həyata keçirilməsi üçün Şirvandakı «Araz» zavodunda döyüş sursatlarının utilizasiyası mərkəzi yaradılmışdır. Zavodda, həmçinin, döyüş sursatlarının doldurulması mərkəzi də fəaliyyət göstərir. Burada müxtəlif çaplı artilleriya mərmiləri presləmə, şnekləmə və aviabombalar əritmə üsulu ilə doldurulacaqdır.

Dövlətimizin başçısı döyüş sursatlarının utilizasiya mərkəzinin maketi ilə tanış olmuşdur. Məlumat verilmişdir ki, Polşanın «Yakuş» şirkəti ilə birlikdə yaradılan mərkəzin ümumi sahəsi 12 hektardır. Mərkəz xüsusiyyətlərinə görə bir-birindən təhlükəsiz məsafələrdə yerləşdirilmiş və mühafizə sipərləri ilə əhatə olunan 24 obyektdən ibarətdir. Buraya utilizasiya proseslərini həyata keçirmək üçün modul tipli 20 konteyner, transformator məntəqəsi, müxtəlif növ partlayıcı maddələr və utilizasiya məmulatları saxlanılan anbarlar, zərərsizləşdirmə kamerası, kompressor binası, döyüş sursatlarının texniki vəziyyətinin qiymətləndirilməsi sahəsi və s. daxildir.

Həmin gün Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, həmçinin, Müdafiə Sənayesi Nazirliyinin telemexanika zavodunun iriçaplı patronların istehsalı mərkəzinin açılışında iştirak etmişdir. Məlumat verilmişdir ki, burada il ərzində üçnövbəli iş rejimində üç növdə 7 milyon patron istehsalı nəzərdə tutulmuşdur. Mərkəzdə quraşdırılmış 106 dəzgahın yarıdan çoxu Avropa ölkələrində hazırlanmış xüsusi texnoloji avadanlıqdır.

Zavoddakı nəzarət-sınaq mərkəzi üçün yeni inzibati bina müəssisədə istehsal olunan xüsusi təyinatlı məmulatların taktiki-texniki xarakteristikalarının, iqlim dəyişmələrinə, nəqliyyat silkələnməsinə dözümlülüyün yoxlanılması üçün nəzərdə tutulmuşdur. Burada atəş sınaqları aparmaq üçün üç sahə yaradılmışdır. Sınaq atışları zamanı müxtəlif ölçülü güllələrin ballistik xüsusiyyətlərinin - təzyiq, sürət və atəşləmə sıxlığının yoxlanılması mümkündür.

Prezident İlham Əliyev həmin gün Şirvan şəhərindəki Bayraq Meydanında yaradılan şəraitlə də tanış olmuşdur. Azərbaycanın əksər bölgələrində olduğu kimi, Şirvanda da yeni yaradılmış Bayraq Meydanı və burada ucaldılan dövlət bayrağı möhtəşəmliyi ilə diqqəti cəlb edir. Bayraq Meydanı Heydər Əliyev prospektində, Şirvan şəhərinin giriş hissəsində yerləşir. Meydanın ümumi ərazisi 1,3 hektar, bayraq dirəyinin hündürlüyü 76 metrdir. Təbii mərmərlə üzlənmiş postamentin üzərində Azərbaycanın xəritəsi, dövlət himninin mətni və dövlət gerbi əks olunmuşdur.

Bildirilmişdir ki, meydan inşa olunarkən burada Azərbaycan memarlıq məktəbinin elementlərindən geniş istifadə edilmişdir. Bayraq Meydanının ərazisində geniş abadlıq işləri aparılmış, yaşıllıq zolağı salınmışdır. Burada 6 minə yaxın ağac, müxtəlif növ gül və bəzək kolları əkilmiş, beş min kvadratmetr sahədə çəmənlik salınmış, mərmər plitələr döşənmiş, müasir oturacaqlar qoyulmuş, işıqlandırma sistemi quraşdırılmışdır. Şirvan Bayraq Meydanında şəhər sakinlərinin istirahəti üçün hər cür şərait vardır. Dövlətimizin başçısı Bayraq Meydanında yaradılmış şəraiti yüksək qiymətləndirmişdir.

# Azərbaycan polisi - asayişin etibarlı təminatçısı

*İyulun 2-də Daxili İşlər Nazirliyinin Polis Akademiyasında Azərbaycan polisinin yaranmasının 95-ci ildönümünə həsr olunmuş mərasim keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev mərasimdə iştirak etmişdir.*



Polis Akademiyasına gələn dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin akademiyanın baş meydanında ucaldılmış abidəsi önünə gül dəstəsi qoymuşdur.

Sonra dövlətimizin başçısı Heydər Əliyev Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsmişdir.

Mərkəzdə yaradılmış şəraitlə tanış olan Prezident İlham Əliyevə məlumat verilmişdir ki, Azərbaycan Prezidentinin 2009-cu il 22 may tarixli sərəncamı əsasında yaradılmış mərkəz ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq məfkurəsinin öyrənilməsi, geniş təbliği məqsədi ilə fəaliyyətə başlamışdır. Mərkəzin üçmərtəbəli binasında ulu öndər Heydər Əliyevin büstü qoyulmuş, dahi rəhbərin mənalı həyatının və çoxşaxəli siyasi fəaliyyətinin müxtəlif dövrlərini, eləcə də Prezident İlham Əliyevin ölkəmizin inkişafı istiqamətində gördüyü işləri əks etdirən stendlər quraşdırılmışdır. Mərkəzin üçüncü mərtəbəsində şahmat dərnəyi, virtual sinif, xaric dil mərkəzi, ümummilli lider Heydər Əliyev irsinin öyrənilməsi mərkəzi, elektron kitabxana və fotostudiya fəaliyyət göstərir.

Daha sonra dövlətimizin başçısı mərkəzin akt zalında Daxili İşlər Nazirliyinin əməkdaşları ilə görüşmüşdür. Tədbirdə çıxış edən daxili işlər naziri, general-polkovnik Ramil Usubov Azərbaycan polisinin inkişafına göstərdiyi yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlığını bildirmişdir.

**rəsmi xronika**

## İkitərəfli münasibətlər uğurla inkişaf edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 1-də İsveçrə Konfederasiyası Federal Parlamentinin Kantonlar Şurasının sədri Filippo Lombardinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Görüşdə Azərbaycan ilə İsveçrə Konfederasiyası arasında ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluq ifadə olunmuş, münasibətlərimizin möhkəmləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmi qeyd olunmuş, əlaqələrimizin enerji, sərmayə qoyuluşu, parlamentlərarası əməkdaşlıq və digər sahələrdə genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

## Azərbaycan-ABŞ əlaqələri genişlənir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 1-də ABŞ müdafiə nazirinin Rusiya, Ukrayna və Avrasiya üzrə müşaviri xanım Evelin Farkasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Görüşdə Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən müdafiə sahəsində uğurla inkişaf etdiyi vurğulanmış, Azərbaycan hərbçilərinin beynəlxalq sülhməramlı missiyanın tərkibində iştirakının önəmi qeyd olunmuş, bu sahədə əməkdaşlığımızın daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

## Qarşılıqlı səfərlər əməkdaşlığın inkişafına xidmət edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 28-də Avropa Xalq Partiyasının Xarici əlaqələr üzrə ekspert qrupunun həmsədri, İtaliyanın keçmiş xarici işlər naziri Franko Frattininin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin uğurla inkişaf etdiyi bildirilmiş, Prezident İlham Əliyevin Brüsselə səfəri zamanı əməkdaşlığımızın genişləndirilməsinə dair Avropa İttifaqının rəhbərləri ilə apardığı səmərəli müzakirələrin önəmi qeyd edilmişdir. Yeni Azərbaycan Partiyası ilə Avropa Xalq Partiyası arasında əməkdaşlığı genişləndirməyin əhəmiyyəti vurğulanmış, Franko Frattinin ölkəmizə səfərinin bu əməkdaşlığın genişləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə olunmuşdur. Söhbət zamanı, həmçinin, Avropanın bəzi qurumlarının, o cümlədən Avropa Xalq Partiyasının bəzi nümayəndələrinin Azərbaycanda gedən inkişaf prosesləri ilə əlaqədar həqiqətə uyğun olmayan qeyri-obyektiv mövqe nümayiş etdirmələrinin əməkdaşlığımızın genişləndirilməsi işinə xidmət etmədiyi vurğulanaraq, bu məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

## Dövlətimizin başçısı Rumıniyanın Baş nazirini qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Rumıniyanın Baş naziri Viktor Pontanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Dövlətimizin başçısı Azərbaycan ilə Rumıniya arasında fəal əməkdaşlıq əlaqələrinin inkişafından məmnunluğunu ifadə etmişdir. Ölkələrimiz arasında güclü ikitərəfli münasibətlərin mövcud olduğunu vurğulayan Prezident İlham Əliyev özəl sektorda yaxşı əməkdaşlığın yaradılması, həmçinin iqtisadi, investisiya qoyuluşu və digər sahələrdə əlaqələrin genişləndirilməsi ilə bağlı imkanların müəyyənləşdirilməsinin önəmini qeyd etmişdir. Dövlətimizin başçısı Rumıniyanın Baş naziri Viktor Pontanın Azərbaycana səfərinin uğurla inkişaf edən əlaqələrimizin daha da genişləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaradacağına ümidvar olduğunu bildirmişdir.

Ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayan Rumıniyanın Baş naziri Viktor Ponta ölkəsinin Avropa İttifaqında Azərbaycanın ən yaxın dostlarından biri olaraq qalmaqda davam edəcəyini qeyd etmişdir. Azərbaycan Prezidentinin Rumıniyaya, Rumıniya Prezidentinin isə Azərbaycana səfərlərini məmnunluqla xatırlayan Baş nazir ikitərəfli münasibətlərimizin daha da möhkəmləndirilməsində, siyasi əlaqələrlə yanaşı, iqtisadi əlaqələrin də əhəmiyyətini qeyd etmişdir.

Görüşdə birgə layihələrin həyata keçirilməsi, enerji sahəsində əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

2 Dövlətlərarası münasibətlər strateji xarakter daşıyır

3 Vergilər Nazirliyi Avropanın ən qabaqcıl vergi inzibatçılığı təcrübəsini tətbiq edir

4 Vergi islahatlarının strateji hədəfləri

5 Sosial sığorta - gələcəyin təminatı

# Dövlətlərarası münasibətlər strateji xarakter daşıyır

*İyunun 28-də Litvanın paytaxtı Vilnüs şəhərində Azərbaycan və Litva arasında İkitərəfli Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 3-cü iclası keçirilmişdir.*





İclasda komissiyanın həmsədrləri - Litvanın xarici işlər naziri Linas Linkevičius və Azərbaycanın vergilər naziri Fazil Məmmədov çıxış etmişlər. Nazirlər iki ölkə arasında əlaqələrin inkişafı və möhkəmləndirilməsində komissiyanın fəaliyyətini yüksək qiymətləndirmişlər. Müasir dövrdə iki ölkənin iqtisadi tərəqqisi, dövlətlərin ikitərəfli iqtisadi münasibətlərinin vəziyyəti və perspektivləri müzakirə edilmiş, qarşılıqlı ticarət imkanlarının inkişafı və diversifikasiyası üçün səy göstərilməsinin vacibliyi vurğulanmışdır.

Qeyd edilmişdir ki, hər iki ölkənin dövlət başçılarının məhsuldar əməyi nəticəsində dövlətlərarası münasibətlər artıq strateji tərəfdaşlıq mərhələsinə qədəm qoymuşdur. Qarşılıqlı əlaqələr intensiv şəkildə inkişaf edir, praktiki olaraq bütün sahələrdə ikitərəfli münasibətlər genişlənməkdədir.

Bildirilmişdir ki, ölkələrarası münasibətlər çoxtərəfli əməkdaşlıq, xüsusilə də Avropa İttifaqının «Şərq tərəfdaşlığı» proqramı çərçivəsində inkişaf edir. Cari ilin ikinci yarımillində Litva Respublikasının Avropa İttifaqı Şurasında sədrlik edəcəyini nəzərə alaraq, tərəflər bu sahədə əməkdaşlığın hərtərəfli inkişaf etdirilməsi üçün daha bir imkan əldə etmiş olacaqlar.

Sonra iclasda Litva və Azərbaycan tərəflərinin hər iki ölkədəki iqtisadi vəziyyət və investisiya mühiti, informasiya texnologiyalarının inkişafı və s. məsələlərlə bağlı təqdimatları keçirilib.

Komissiya iki ölkə arasında qarşılıqlı sərmayə qoyuluşu, iqtisadi vəziyyət və ikitərəfli ticari-iqtisadi münasibətlərin inkişaf perspektivləri, sənaye və energetika, kənd təsərrüfatı, gənclər və idman, mədəniyyət və turizm, nəqliyyat, informasiya texnologiyaları və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi imkanlarını müzakirə etmişlər.

Komissiyanın növbəti iclasının Azərbaycan Respublikasında keçirilməsi barədə razılığa gəlinmişdir. Müzakirələr yekunlaşdıqdan sonra Azərbaycan və Litva arasında İkitərəfli Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 3-cü iclasının protokolu imzalanmışdır.

*Azərbaycan Mətbuat Şurası və «Vergilər» qəzetinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş «Heydər Əliyev və Azərbaycanda vergi siyasəti» mövzusunda fərdi jurnalist yazıları müsabiqəsi müasir vergi sistemi ilə bağlı yeniliklərin, habelə qarşıda duran əsas hədəflərin cəmiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət daşımışdır. «Heydər Əliyevin iqtisadi inkişaf strategiyasında vergi siyasəti», «Nağdsız ödəniş sisteminin inkişaf perspektivləri», «Əmək müqaviləsi: gələcəyə təminat» istiqamətləri üzrə keçirilmiş müsabiqəyə ümumilikdə 44 yazı təqdim edilmiş, onlardan 9-u əsas mükafata layiq görülmüşdür.*

*Bu sayımızdan etibarən müsabiqədə yüksək yer tutmuş jurnalistlərin məqalələrini oxucuların diqqətinə təqdim edirik.*

# Vergi sistemində mütərəqqi islahatların banisi

*«Vergi xidməti müasir əsaslarla idarə olunur, burada müasir menecment tətbiq edilir, dünya praktikası öyrənilir. Ölkə iqtisadiyyatı üçün çox vacib olan bu sahədə aparılan islahatlar, tətbiq edilən yeniliklər, «bir pəncərə» təşəbbüsü müasir Azərbaycanın inkişafına xidmət göstərir».*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

Müstəqillik hər bir xalqın, dövlətin davamlı inkişafını milli ideya səviyyəsinə yüksəldərək mövcud iqtisadi, elmi-intellektual və mədəni potensialdan səmərəli istifadəyə geniş imkanlar yaradır. Fəqət müstəqillik nemətinə qovuşan hər bir xalq ilkin mərhələdə onu qoruyub saxlamaq, möhkəmləndirmək, dövlətin gələcək inkişafına etibarlı bünövrə hazırlamaq kimi məsuliyyətli və çətin mərhələni də keçməli olur. Müstəqil Azərbaycan 1993-cü ilin iyun ayında üzləşdiyi bu taleyüklü mərhələni məhz qətiyyətli və müdrik lideri Heydər Əliyevin rəhbərliyi altında geridə qoymuş, ölkənin elmi təməl üzərində davamlı inkişaf yolunu müəyyənləşdirmişdir.

Azərbaycanın 22 illik müstəqillik yolunda nail olduğu inanılmaz iqtisadi nailiyyətlərin məhz milli inkişaf modeli ilə bağlılığı aksiom kimi qəbul edilən həqiqətdir. 1993-cü ildə yeni ictimai-iqtisadi formasiyaya keçidin çətinliklərini yaşayan Azərbaycanın hansı iqtisadi modelə üstünlük verəcəyi ilə bağlı müxtəlif fikirlər, təkliflər irəli sürülsə də, böyük strateq Heydər Əliyev hansısa dövlətin təcrübəsinin olduğu kimi milli iqtisadiyyata köçürülməsini düzgün saymamış, milli resurslarla yanaşı, xalqın mentalitetini, tarixi ənənələrini, inkişaf yolunun özəlliklərini ciddiliklə nəzərə almışdır. Ümummilli lider mərkəzi planlaşdırma və bölgü prinsiplərinin hakim olduğu ictimai-iqtisadi formasiyadan azad bazar iqtisadiyyatına optimal keçid modelini müdrikliklə irəli sürmüş, onun mərhələlərlə həyata keçirilməsinə çalışmışdır.

Bazar iqtisadiyyatı şəraitində həyata keçirilən islahatların səmərəliliyinə nail olmaq baxımından ölkənin vergi sistemində köklü dəyişikliklərin aparılması, vergi sisteminin müasir standartlar əsasında formalaşdırılması zərurət kimi ortaya çıxmışdı. Vergi sisteminin yeni ictimai-iqtisadi formasiyanın tələblərinə uyğun qurulması bütün təsərrüfat sisteminin səmərəli fəaliyyətinin təmini baxımından əhəmiyyətli idi. Hələ dövlət müstəqilliyinin ilk illərində ulu öndər Heydər Əliyev böyük müdrikliklə demişdi: «Əgər biz müstəqil dövlətiksə, müstəqil inkişaf etmək istəyiriksə, biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik. Buna görə də vergi orqanlarının işinə daha çox diqqət yetirməliyik».

Məhz Heydər Əliyevin diqqət və qayğısı nəticəsində ölkədə müasir tələblərə cavab verən vergi sisteminin yaradılması mümkün olmuş, müasir iqtisadi münasibətlər şəraitində prinsipial cəhətdən yeni vergi siyasətinin həyata keçirilməsinə başlanılmışdır. Vergi sisteminin təkmilləşdirilməsi, onun vahid normativ hüquqi bazasının yaradılması, vergi dərəcələrinin aşağı salınması hesabına vergitutma bazasının genişləndirilməsi, kiçik və orta sahibkarlıq üçün əlverişli vergi mühitinin yaradılması, həmçinin vergi xidməti orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması tədbirləri xüsusi diqqət mərkəzində olmuşdur.

Həmin dövrün vergi qanunvericiliyində mövcud bir sıra boşluqlar istər vergi ödəyiciləri, istərsə də vergi xidməti orqanlarında haqlı narazılıqlar doğurduğundan ümummilli liderin təşəbbüsü və rəhbərliyi ilə ölkənin vergi sisteminin yenidən təşkil edilməsi prosesinə start verilmişdir. Ulu öndərin bilavasitə tapşırığı ilə Nazirlər Kabineti vergi münasibətlərinin təkmilləşdirilməsi məqsədilə bir sıra qərarlar qəbul etmişdir. Bunlara misal olaraq «Azərbaycan Respublikası ərazisində əhali ilə nağd pul hesablaşmalarının aparılmasına nəzarət-kassa aparatlarının tətbiq olunması haqqında» 18 iyul 1995-ci il, «Vergi ödəyicilərinin uçotunun təkmilləşdirilməsi barədə» 19 dekabr 1996-cı il, «Mənfəət vergisinin ödənilməsini mərkəzləşdirilmiş qaydada həyata keçirən subyektlər haqqında» 31 mart 1997-ci il, «Azərbaycan Respublikası ərazisinə gətirilən minik avtomobillərinin aksiz vergisinə cəlb edilməsi haqqında» 16 aprel 1997-ci il tarixli və digər qərarları göstərmək olar.

Vergi sisteminin təkmilləşdirilməsi və bu sahədə aparılan köklü islahatların daha da sürətləndirilməsi məqsədilə ulu öndər Heydər Əliyevin bilavasitə tapşırığı əsasında 1997-ci ildən başlayaraq Vergi Məcəlləsinin layihəsinin hazırlanmasına başlanılmışdır. Nazirlər Kabinetinin 1998-ci ilin noyabrında keçirilmiş geniş iclasında söylədiyi yekun nitqdə ölkə rəhbəri Vergi Məcəlləsinin qısa müddətdə hazırlanması və qəbul edilməsinin vacibliyini vurğulamış, müvafiq tapşırıqlarını vermişdir. Layihədə bütün diqqət mükəmməl vergi qanunvericiliyinin yaradılmasına, inzibati idarəetmənin yaxşılaşdırılmasına, vergilərin dövlət büdcəsinə tam səfərbər olunmasına yönəldilmişdir. Nəhayət, Milli Məclisdə qəbul olunaraq 2001-ci ilin yanvarın 1-dən qüvvəyə minən Vergi Məcəlləsi vergi sisteminin təkmilləşdirilməsi və onun beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində atılmış mühüm addımlardan biri olmuşdur.

Xatırladaq ki, hələ 1990-cı ildə Maliyyə Nazirliyinin tərkibində formalaşdırılmış vergi xidməti bir il sonra Baş Dövlət Vergi Müfəttişliyi kimi fəaliyyət göstərməyə başlamışdır. Lakin ulu öndərin rəhbərliyi altında həyata keçirilən vergi islahatları fonunda dövlətin vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında, tam yığılmasını təmin edən, bu sahədə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanının yaradılması zəruri tələbə çevrilmişdi. Bu reallıqdan çıxış edən ulu öndər Heydər Əliyevin 11 fevral 2000-ci il tarixli fərmanı ilə Baş Dövlət Vergi Müfəttişliyi ləğv edilmiş, onun bazasında Vergilər Nazirliyi yaradılmış, onun səlahiyyətləri, ölkə iqtisadiyyatının inkişafındakı rolu dəqiqliklə müəyyənləşdirilmişdir. Ulu öndər bununla həm də vergi siyasətini iqtisadi siyasətin mühüm tərkib hissəsi kimi dəyərləndirərək iqtisadi tənzimləmədə, habelə fiskal siyasətin həyata keçirilməsində onun aparıcı rolunu müəyyənləşdirmişdir. Beləliklə, ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə formalaşdırılan müasir vergi sistemi ölkədə iqtisadi keçid dövrünün uğurla başa çatdırılmasında mühüm rol oynamış, bazar münasibətlərinə adekvat çevik vergi siyasətini həyata keçirməyə qadir, beynəlxalq standartlara cavab verən səmərəli idarəetmə sisteminə çevrilmişdir.

2003-cü ildən ulu öndər Heydər Əliyevin siyasi kursunu inamla davam etdirən dövlət başçısı İlham Əliyev ölkənin davamlı tərəqqisinin təmini baxımından vergi orqanlarında islahatları sistemli şəkildə davam etdirilməsini vacib hesab etmişdir. Dövlət başçısının rəhbərliyi altında ötən illərdə Azərbaycanda həyata keçirilən vergi siyasəti sistemlilik, funksionallıq, çeviklik, operativlik, koordinasiya olunma və güclü təşkilati-idarəetmə mexanizmi kimi müsbət keyfiyyətləri özündə ehtiva edir. Vergilər Nazirliyi son illər istər vergi ödəyiciləri üçün elektron xidmətlərin təşkilinə, istər kreativ yeniliklərin tətbiqinə, istərsə də müasir menecment prinsiplərinə əsaslanan idarəetmə üsuluna görə fərqlənən dövlət qurumlarından biridir. 2006-cı ildə vergi inzibatçılığı proseslərinin elektron qaydada aparılmasına imkan verən Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS), 2007-2010-cu illərdə vergi ödəyiciləri üçün elektron bəyannamə, elektron vergi hesab-fakturalarının göndərilməsi, «onlayn kargüzarlıq» sistemi tətbiq edilmişdir.

Ümumilikdə vergi sistemində aparılan islahatların əsas hədəfləri vergi xidmətinin texnoloji baxımdan inkişafına nail olunması, vergi prosedurlarının sadələşdirilməsi yolu ilə biznesin inkişafının dəstəklənməsi, vergi ödəyicilərinin könüllü əməletmə səviyyəsinin yüksəldilməsidir. Dövlət başçısının 2012-ci il 29 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında vergi islahatlarının bu və digər aspektləri dəqiq əksini tapmışdır.

Azərbaycanın müasir vergi inzibatçılığı biznes iştirakçıları üçün maksimum rahat və əlverişli hesab edilir. Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyasının tərtib etdiyi müvafiq hesabatlara görə, bu gün Azərbaycanda vergi bəyannamələrinin tərtibi və təqdim edilməsi, eləcə də vergi ödəmələrinin aparılması üçün qanunverici normalara riayət olunmasına sərf edilən orta vaxt göstəricisi orta ümumdünya göstəricisini qabaqlayır. Vergi xərclərinin vergi daxilolmalarında nisbəti isə cəmi 0,35 faiz təşkil edir və bu göstəriciyə görə Azərbaycanın vergi xidməti Avropa məkanında ən səmərəli vergi inzibatçılığına malik ölkələrdən sayılır.

Vergilər Nazirliyi inzibatçılıq sahəsində və elektron xidmətlərin geniş tətbiqi prosesini fəal şəkildə davam etdirməklə korrupsiya hallarına qarşı mübarizədə mühüm rol oynayan məmur-vətəndaş təmaslarını minimuma endirmək niyyətindədir. 2008-ci ildən sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı «bir pəncərə» prinsipi ilə həyata keçirilir. Sahibkarlıq subyektlərinin dövlət qeydiyyatında «bir pəncərə» prinsipinin tətbiqi bu sahədə prosedurların sadələşməsinə və qeydiyyat üçün tələb olunan vaxtın azalmasına imkan vermiş, Dünya Bankının hazırladığı «Doing Business» hesabatında Azərbaycan bu sahədə ən böyük islahatçı ölkə kimi qeyd olunmuşdur. 2011-ci ildən sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin, 2012-ci ildən isə kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı elektron formada həyata keçirilir. İndi fərdi sahibkar olmaq istəyən istənilən şəxs bir neçə dəqiqə ərzində biznesə başlamaq üçün rəsmi qeydiyyat prosesini tamamlaya bilir.

Hazırda Vergilər Nazirliyi vergitutma bazasının genişləndirilməsi, vergilərdən yayınma hallarının minimuma endirilməsi məqsədilə vergi nəzarətinin müasir texnologiyalarının tətbiqi layihəsi üzərində çalışır. 2011-ci ildə vergi sistemində çox böyük bir layihənin icrasına başlanılmışdır. Bu, Avropa İttifaqının Qonşuluq Siyasəti çərçivəsində «Kompyuter əsaslı audit sistemi sahəsində Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstəyin göstərilməsi» tvinninq layihəsidir. Yaxın gələcək üçün çox böyük perspektivlərə malik olan bu layihə ölkəmizdə vergi auditi sahəsində inzibatçılığın ən yüksək beynəlxalq standartlara uyğunlaşdırılmasını nəzərdə tutur.

Azərbaycanda ilk dəfə ƏDV inzibatçılığı prosesində vergi nəzarətinin tam elektronlaşdırılmasına imkan verən ƏDV depozit hesabı tətbiq edilmişdir. Vahid ƏDV depozit hesabının tətbiqi ƏDV üzrə vergidən yayınmaların qarşısının alınmasına, eyni zamanda vergi ödəyicilərinin ƏDV üzrə inzibati yükünün azaldılmasına da şərait yaratmışdır. Vergi sistemində elektron xidmətlərin təşkili də mühüm addımlardan biridir. Dövlət orqanlarının göstərdikləri elektron xidmətlər arasında vergi sistemi üzrə 57 elektron xidmətin həyata keçirilməsi nəzərdə tutulmuşdur və hazırda onların 49-u tətbiq olunur. Bu, vətəndaş və biznes cəmiyyətinin vergi sisteminə olan inamını artırır. Ümumiyyətlə, Azərbaycanda vergi ödəyicilərinə xidmət sahəsi daim diqqət mərkəzindədir. Vergi ödəyicilərinin məlumatlandırılması, onlara hüquqi yardım, qarşılaşdıqları problemlərin həllində yardımçı olmaq işi bu sahədə həyata keçirilən siyasətin əsas prinsipləridir.

Vergi ödəyicilərinə xidmətin keyfiyyətcə yeni mərhələyə qaldırılması üçün son illər vergi ödəyicilərinə xidmət mərkəzləri yaradılmışdır. Sayı 40-a çatan bu mərkəzlər sahibkarların, kiçik bizneslə məşğul olan vətəndaşların əsl köməkçisinə çevrilmiş, xüsusilə regionlarda vergi bəyannamələrinin təqdim olunması, vergi ödəyicilərinin məlumatlandırılması prosesinə müsbət təsir etmiş, nəticə etibarilə könüllü bəyanetmə səviyyəsinin artmasına səbəb olmuşdur.

Elektron hökumətin qurulması sahəsində görülən işlərin davamı olaraq bir müddət əvvəl Vergilər Nazirliyinin Elektron İmza üzrə Sertifikat Xidmətləri Mərkəzi istifadəyə verilmişdir. Bu mərkəz elektron xidmətlərin elektron imzadan istifadə etməklə həyata keçirilməsini, eləcə də onların mobil qurğular vasitəsilə təqdim olunmasını nəzərdə tutur. Həyata keçirilən bu layihə ölkəmizdə internet-mobil bankçılığın inkişafına, nağdsız hesablaşmaların genişlənməsinə təkan verməklə yanaşı, Azərbaycanda elektron hökumətdən mobil hökumətə keçidin əsası kimi də dəyərləndirilə bilər.

Ümumilikdə son illər nağdsız ödənişlərin genişləndirilməsi və əmək münasibətlərinin rəsmiləşdirilməsi sahəsində həyata keçirilən tədbirlər də vergi orqanlarının səmərəli fəaliyyət göstərdiyini təsdiqləyir. 2013-cü il 1 yanvar tarixdən qüvvəyə minmiş Vergi Məcəlləsinə əlavə və dəyişikliklər vergi sisteminin daha da təkmilləşdirilməsinə, vergi ödəyicilərinin maraq və mənafeyinin maksimum dərəcədə qorunmasına xidmət edir. Məcəllədə sahibkarlığın inkişafına xidmət edən bir sıra vergi güzəştlərinin əksini tapması, məsələn, sənaye parklarının 7 il müddətində vergidən azad olunması ölkədə liberal vergi sisteminin mövcudluğunu bir daha təsdiqləyir.

**Elnur HACALIYEV,**
***«Azərbaycan» qəzeti***

# Vergilər Nazirliyində görüş keçirilmişdir

*İyun ayının 27-də vergilər nazirinin birinci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Natiq Əmirov Macarıstan Respublikasının Milli İnkişaf Nazirliyinin İnformasiya kommunikasiyaları üzrə dövlət katibi cənab Vilmoş Vadi-Naqinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Görüşdə Macarıstan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Jolt Çutora, Macarıstanın Milli Vergi və Gömrük Administrasiyasının vitse- prezidenti İvan Kovaçiç, həmçinin Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxsləri iştirak etmişlər.*

*Natiq Əmirov ölkələrimiz arasında qonşuluq, dostluq və sıx əməkdaşlıq münasibətlərinin olduğunu qeyd etmiş, Azərbaycanın vergi sistemində son illər aparılan islahatlar və qarşıya qoyulmuş strateji hədəflər barədə məlumat vermişdir. O, yaxın gələcəkdə müasir informasiya texnologiyalarının tətbiqi, birinci mərhələsi başa çatmaqda olan elektron audit layihəsinin həyata keçirilməsi, partnyorluq sazişlərinin bağlanılmasına başlanılması, nəzarət sistemində daha şəffaf və asan yollardan istifadə olunmasına üstünlük verilməsi kimi məsələlərin Azərbaycanın vergi xidmətinin qarşısında prioritet məsələlər olduğunu diqqətə çatdırmışdır.*



Macarıstanın Milli İnkişaf Nazirliyinin İnformasiya kommunikasiyaları üzrə dövlət katibi cənab Vilmoş Vadi-Naqi Azərbaycanın vergi sistemində son 10 ildə aparılmış islahatların nəticələrinin onlar üçün çox maraqlı olduğunu, xüsusilə vergi sisteminin elektronlaşdırılması, vergi ödəyicilərinə xidmət, ƏDV inzibatçılığı sahəsində ölkəmizin əldə etdiyi uğurların təqdirəlayiq olduğunu vurğulamışdır. Bildirmişdir ki, Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin «ASAN xidmət» Mərkəzi, eləcə də Vergilər Nazirliyinin «bir pəncərə» sahibkarlıq subyektlərinin qeydiyyatı sistemi, Xüsusi Rejimli Vergi Xidməti Departamentinin fəaliyyəti, «195» Telefon-məlumat xidməti ilə tanış olmuş, son illər vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi istiqamətində Azərbaycanda həyata keçirilən islahatlar, yeni informasiya texnologiyalarının tətbiqinə dair təqdimatları dinləmişlər.

Görüşdə Azərbaycan Respublikası ilə Macarıstan Respublikası arasında ikitərəfli əməkdaşlığın cari vəziyyəti və inkişaf imkanları ilə bağlı ətraflı fikir mübadiləsi aparılmışdır.

# «Vergilər Nazirliyi Avropanın ən qabaqcıl vergi inzibatçılığı təcrübəsini tətbiq edir»

*Moldova Azərbaycanın vergi sistemindəki islahatları yüksək qiymətləndirir*

**İyunun 19-dan 21-dək Moldova Respublikasının Maliyyə Nazirliyi yanında Baş Dövlət Vergi Müfəttişliyinin nümayəndə heyəti Azərbaycana səfəri çərçivəsində Vergilər Nazirliyində olmuşdur. Müfəttişliyin Fiziki şəxslərin vergiyə cəlb edilməsi idarəsinin rəisi Maya Tverdoxleb və Birbaşa vergilərin inzibatçılığı idarəsinin rəisi Veronika Vragaleva Vergilər Nazirliyinin rəhbərliyi ilə görüşlər keçirmiş, Azərbaycanın vergi sisteminin vəziyyəti, həyata keçirilən islahatlarla yaxından tanış olmuşlar. Moldovalı qonaqlar müxbirimizin suallarını cavablandıraraq Azərbaycanla Moldova arasında iqtisadi əlaqələrin vəziyyəti, vergi sahəsində əməkdaşlıq, qarşılıqlı təcrübə mübadiləsi və nəzərdə tutulan birgə tədbirlər haqqında fikirlərini bölüşmüşlər.**



Xanım Maya Tverdoxleb Azərbaycanla Moldova arasında iqtisadi əməkdaşlığın spektrinin çox geniş olduğunu, qarşılıqlı əməkdaşlığın müstəqillikdən sonra yeni inkişaf mərhələsinə qədəm qoyduğunu bildirib. Vergi sahəsində çox səmərəli əməkdaşlığın mövcud olduğu, Azərbaycanın vergi administrasiyası ilə neçə illərdir ki, təcrübə mübadiləsi aparıldığı qeyd edilib. 2000-ci ildən tətbiq olunan investisiyaların təşviqi, gəlirlərə və əmlaka görə ikiqat vergitutmanın aradan qaldırılması, digər sahələr üzrə çox vacib sənədlərin imzalanması bu münasibətlərin daha da inkişaf etməsinə səbəb olub. Həmin sənədlər tərəflərin maraqlarını təmin etməklə biznes sektoru arasında əlaqələrə də öz töhfəsini verib.

Qeyd olunduğuna görə, Azərbaycan hazırda sürətli iqtisadi inkişaf mərhələsinə daxil olub və ölkə iqtisadiyyatı yeni çağırışlar ərəfəsindədir. Dövlət iqtisadiyyatın müxtəlif sahələrinə böyükhəcmli investisiyaların axını şəraitində biznes mühitinin təkmilləşdirilməsi ilə əlaqədar addımlar atılır. Müasir dövrün iqtisadi reallıqları, informasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsində yüksək inkişaf və İKT-nin idarəetmədə rolunun artması bir çox sahələrdə xidmətlərin elektronlaşdırılmasına səbəb olmaqdadır.

Xanım Veronika Vragaleva isə bildirib ki, tərəflər MDB-yə üzv ölkələrin vergi administrasiyaları və GUAM çərçivəsində əməkdaşlıq edirlər. GUAM-da son illər iqtisadiyyatda şəffaflığın təmin olunması, çirkli pulların yuyulmasına qarşı mübarizə tədbirləri çox səmərəlidir. Eləcə də maliyyə, bank, gömrük sahəsində əlaqələr inkişaf etməkdədir.

Vergilər Nazirliyindəki görüşdə Azərbaycanın vergi sistemində son illərdə aparılan sistemli, davamlı islahatlar barədə geniş məlumat əldə etdiklərini bildirən moldovalı qonaqların fikrincə, son illərdə vergi ödəyicilərinə göstərilən xidmətlərin çeşidinin və həcminin genişləndirilməsi, vergi inzibatçılığının bütün sahələrində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, vergilərin ödənişi ilə bağlı texniki potensialın gücləndirilməsi və aktiv vergi siyasəti bu sahədə əhəmiyyətli müsbət dəyişikliklərə səbəb olub. Regionlarda yeni iş yerlərinin açılması, kiçik və orta biznesin əhatə dairəsinin genişlənməsi, sənayeləşmə siyasəti və digər tədbirlər vergi daxilomalarının həcminin artmasına imkan verib. Sahibkarlıq subyektlərinin qeydiyyatı prosesinin sadələşdirilməsinin nəticəsidir ki, ölkədə yeni biznes sahələri yaranıb və bu amil vergi gəlirlərinə müsbət təsir göstərir.



Azərbaycan Vergilər Nazirliyinin Avropanın ən qabaqcıl vergi inzibatçılığı təcrübəsini öyrənib tətbiq edən qurum olduğunu bildirən Maya Tverdoxleb ölkəmizin MDB-də vergi inzibatçılığının funksional və mütərəqqi sisteminin bariz nümunəsini yaratdığını qeyd etmişdir. Ölkəmizin vergi sistemində ən müasir texnologiyaların tətbiq edilməsi, avtomatlaşdırılmış vergi informasiya strukturunun formalaşdırılması, bəyannamələrin elektron formada təqdim olunması, elektron audit və digər yeniliklərin Moldovanın vergi sistemi üçün önəmli olduğu bildirilib. Eyni zamanda, insan resurslarının inkişafı ilə bağlı təlim-tədris proseslərinin optimallaşdırılması, ən qabaqcıl proqramların tətbiqi moldovalı qonaqlar üçün maraq doğurub.

Qeyd edək ki, hər iki ölkə bir neçə ildir ki, vergi hüquqpozmaları ilə mübarizə və məlumat mübadiləsi sahəsində əməkdaşlıq edir. Vergilərin könüllü ödənilməsi səviyyəsinin artırılması, vergi fırıldaqçılığına və vergilərin ödənilməsindən yayınma hallarına qarşı mübarizənin səmərəliliyi, vergilərin məcburi tutulması və vergi borclarının yaranmasının qarşısının alınması mexanizminin təkmilləşdirilməsi sahəsində də fəal əməkdaşlıq mövcuddur. Hazırda tərəflər bu istiqamətdə səylərini artırmaq və bir sıra yeni vasitələrdən faydalanmaq niyyətindədir. Bu məqsədlə işçi qrupların yaradılması, mütəxəssislərin mübadiləsinin həyata keçirilməsi, konfrans və seminarların təşkili vacib hesab olunur. Moldova Baş Dövlət Vergi Müfəttişliyi elektron bəyannamələr sahəsində qarşılıqlı təcrübə mübadiləsi ilə bağlı əməli işlərə başlamaq niyyətindədir. Hər iki ölkə bəyannamələrin təqdim edilməsi sahəsində ən yeni informasiya texnologiyalarını tətbiq edir. Bununla yanaşı, yeni informasiya texnologiyaları ilə bağlı qarşılıqlı mübadilənin gücləndirilməsi də zəruri hesab olunur.

**Elbrus CƏFƏRLİ**



Akif Musayev
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin
Vergi siyasəti və strateji araşdırmalar
Baş İdarəsinin rəisi

## Rakurs

# Bazar iqtisadiyyatının tənzimlənməsində vergi mexanizminin rolu

Bazar iqtisadiyyatı şəraitində dövlətin cəmiyyətdə gedən sosial-iqtisadi proseslərin tənzimlənməsi ilə bağlı funksiyasının rolu daha da artır, iqtisadi inkişafın təmin edilməsi üçün sahibkarlıq fəaliyyətinin inkişafına əlverişli iqtisadi mühitin yaradılması və iqtisadiyyata investisiya qoyuluşlarının stimullaşdırılması əsas vəzifələrdən birinə çevrilir. Bu vəzifələrin həyata keçirilməsinin təmin edilməsində dövlətin müəyyən etdiyi vergi siyasəti böyük rol oynayır. Vergi siyasəti ölkənin bütün sosial-iqtisadi həyatına təsir etməklə dövlət idarəçiliyinin əsas elementləri, o cümlədən maliyyə-kredit siyasəti, qiymətqoyma, əhalinin sosial və maddi təminatı və s. məsələlərlə sıx əlaqədə olur.

İstənilən dövlətin vergi siyasəti vergi mexanizmi vasitəsilə həyata keçirilir. Vergi mexanizmi dedikdə, vergilərlə bağlı təşkilati-hüquqi normaların, vergitutma metodlarının və alətlərinin (vergi dərəcəsi, vergi güzəştləri, vergitutmanın qaydaları və s.) məcmusu nəzərdə tutulur. Dövlətin qəbul etdiyi vergi qanunvericiliyi aktları vasitəsi ilə vergi mexanizmi hüquqi qüvvə qazanır, sosial-iqtisadi məsələlərin vergi tənzimlənməsi həyata keçirilir. İstənilən vergi mexanizminin tətbiqi qanunvericiliyin tələbləri çərçivəsində obyektiv əsaslarla həyata keçirilir və vergi mexanizmi vasitəsi ilə biznes prosesinin lazım olan istiqamətdə yönəldilməsinə şərait yaratmaq mümkündür.

*Vergi mexanizminin tətbiqi vergi idarəçiliyinin üç əsas istiqamətini - vergi planlaşdırmasını, vergi tənzimləməsini və vergi nəzarətini əhatə edir*

Vergi mexanizmi vergi hüququnun normalarına əsaslanaraq vergitutma sahəsində yaranan münasibətlərin tənzimlənməsinə və vergi idarəçiliyinin həyata keçirilməsinə imkan yaradır. Vergi mexanizminin tətbiqi vergi idarəçiliyinin üç əsas istiqamətini - vergi planlaşdırmasını, vergi tənzimləməsini və vergi nəzarətini əhatə edir. Ümumiyyətlə, bazar iqtisadiyyatı şəraitində vergi mexanizmi biri-birinə ziddiyyət təşkil edən iki məqamı özündə birləşdirir. Bunlardan biri dövlət tərəfindən iqtisadiyyatın bütün sahələrinin balanslaşdırılmış şəkildə inkişafına yönəldilən tədbirlərin görülməsi, digəri isə sahibkarlıq subyektləri arasında azad bazar rəqabətinin təmin edilməsidir. Bu, hökumətin yeritdiyi vergi siyasətinin iqtisadiyyata təsiri və bazar iqtisadiyyatının sərbəst formalaşması prosesləri arasında qarşılıqlı əlaqənin yaradılması ilə baş verir. Lakin bazar münasibətlərinin sərbəst rəqabətlilik prinsipləri sahibkarlıq subyektlərindən bir qrupunun inkişafına, digər qrupunun isə müflisləşməsinə gətirib çıxara bilir ki, bu da dövlətin cəmiyyət qarşısındakı öhdəliklərinə uyğun deyil. Ona görə də bazar münasibətlərinin dövlət tərəfindən tənzimlənməsinə zərurət yaranır.

Dünyanın inkişaf etmiş qabaqcıl ölkələrində vergi mexanizmi bazar münasibətlərinin dövlət tənzimlənməsinin əsas alətidir. Vergi mexanizmi ölkənin bütün təsərrüfat subyektlərinin fəaliyyətini əhatə etməklə hökumətin cəmiyyətdəki münasibətlərə təsirinin daha universal aləti kimi çıxış edərək azad sahibkarlıq fəaliyyətinin inkişafına əlverişli vergi mühitinin yaradılmasına və investisiya qoyuluşlarının stimullaşdırılmasına xidmət edir. Bu zaman vergilərin cəmiyyətdəki rolu dövlətin yürütdüyü vergi siyasətinə uyğun qurulmuş vergi mexanizmi vasitəsilə müəyyən edilir.

Ümumiyyətlə, vergilərin cəmiyyətdəki əsas rolu dövlət xəzinəsinin maliyyə vəsaitləri ilə təmin olunmasıdır. Dövlət xəzinəsinə yığılan vergilər hesabına dövlətin vacib funksiyalarının, o cümlədən müdafiə, təhsil, səhiyyə sahəsinin, cəmiyyətin hər bir üzvünə konstitusiya təminatlarının verilməsi və sosial təminatların həyata keçirilməsi üçün maliyyə fundamenti yaradılır. Lakin nəzərə alınmalıdır ki, xəzinəyə alınan vergilərin həcmi vergi ödəyicilərinin iqtisadi imkanlarından üstün olmamalıdır. Əks halda, vergi borclarının yaranmasına və sərbəst inkişaf üçün maneələrin ortaya çıxmasına şərait yaranır. Vergi yükünün artırılması vergilərin fiskal funksiyasından irəli gəlməsinə baxmayaraq, bu, eyni zamanda, vergi ödəyiciləri arasında vergidənyayınma meyillərinin yaranmasına da gətirib çıxarır.

Qeyd etmək lazımdır ki, vergi mexanizminin səmərəliliyinin təmin olunmasında vacib məsələlərdən biri vergi ödəyicilərinin vergilərin hesablanması, ödənilməsi qaydaları haqqında məlumatlılığının təmin edilməsidir. Bununla əlaqədar vergi mexanizmi elə qurulmalıdır ki, hər bir vergi ödəyicisi hansı vergini, hansı məbləğdə və nə vaxt ödəməli olmasını dəqiq bilsin.

İnkişaf etmiş dünya ölkələrində olduğu kimi, Azərbaycanın vergi siyasətinin əsas istiqamətləri vergi mexanizminin sadə və təkmil qurulmasını və vergi yükünün azaldılmasını nəzərdə tutmaqla sahibkarlıq fəaliyyətinin sərbəst inkişafı üçün əlverişli iqtisadi şəraitin yaradılmasına yönəldilmişdir. Hazırda iqtisadiyyatda dövlət büdcəsindən subsidiyalar alan sahələrin, o cümlədən mənzil-kommunal təsərrüfatı, kənd təsərrüfatı və s. kimi sahələrin olduğu bir şəraitdə həmin sahələr üzrə fəaliyyət göstərən vergi ödəyicilərinin üzərinə düşən vergi yükünün düzgün və optimal bölüşdürülməsini təmin edən vergi mexanizminin yaradılması çox vacib məsələlərdəndir. Ümumən, təkmil vergi mexanizminin yaradılmasının əsasında vergilərin həm fiskal, həm də tənzimləyici funksiyalarının həyata keçirilməsini təmin edən tədbirlər, o cümlədən vergi dərəcələrinin optimallaşdırılması, vergi güzəşti və azadolmalarından təyinatı üzrə istifadənin təmin olunması, vergi yükü aşağı salınmaqla vergitutma bazasının genişləndirilməsi durur.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Azərbaycanın İKT sektoru hər 3 ildə **2 dəfə** genişlənir. Son 10 il ərzində sektor üzrə orta illik artım tempi **20-25%** təşkil edib.
- Son 5 il ərzində Azərbaycanda mobil rabitə sektoru üzrə gəlirlər **1,3 dəfə**, abunəçi bazası isə **1,5 dəfə** artıb.
- Dünya Bankı Bakı şəhərində məişət tullantılarının idarə edilməsi layihəsinə əlavə **47 mln. dollar** ayırıb.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir.

# Vergi tutulan əməliyyatın vaxtı

*ƏDV ödəyicisiyəm. Bu il iyun ayının 5-də aldığım malın dəyərinin bir hissəsini dərhal ödəmişəm, bir hissəsini isə iyul ayının 20-də ödəməyi öhdəmə götürmüşəm. Bu zaman vergi tutulan əməliyyatın vaxtı hansı ay hesab edilir?*

Vergi Məcəlləsinin 166.1-ci maddəsində qeyd edilmişdir ki, bu maddədə başqa hallar nəzərdə tutulmamışdırsa, vergi tutulan əməliyyatın vaxtı həmin əməliyyat üçün ödəmə 30 gün müddətində həyata keçirildikdə ödəmənin aparıldığı, ödəmə 30 gündən sonra həyata keçirildikdə isə ƏDV-nin elektron vergi hesab-fakturasının verildiyi vaxt sayılır.

Məcəllənin 166.1.1-ci və 166.1.2-ci maddələrində göstərilən müddətlərdən sonrakı 5 gün ərzində ƏDV-nin elektron vergi hesab-fakturası verilmirsə, vergi tutulan əməliyyat aşağıdakı vaxtlarda aparılmış sayılır:

- malların təqdim edilməsindən, işlərin görülməsindən və xidmətlərin göstərilməsindən ödəmə 30 gün müddətində aparıldıqda ödəmənin həyata keçirildiyi vaxtda, 30 gündən sonra aparıldıqda isə malların göndərildiyi və ya təqdim edildiyi, işlərin görüldüyü və xidmətlərin göstərildiyi vaxtda; və ya
- malların göndərilməsi onların daşınmasını nəzərdə tutursa, ödəmə 30 gün müddətində aparıldıqda ödəmənin həyata keçirildiyi vaxtda, 30 gündən sonra aparıldıqda isə daşınmanın başlandığı vaxtda.

Vergi Məcəlləsinin 166.2-ci maddəsinə əsasən, ödəmə 166.1.1-ci və ya 166.1.2-ci maddələrdə göstərilən müddət başlananadək həyata keçirildikdə ödəmədən sonrakı 5 gün ərzində ƏDV-nin elektron vergi hesab-fakturası verilmirsə, vergi tutulan əməliyyat ödəmə həyata keçirildikdə aparılmış sayılır. Vergi tutulan əməliyyat üçün iki və ya daha çox ödəmə aparılırsa, hər ödəmə ödəniş miqdarında ayrıca əməliyyat üçün həyata keçirilmiş sayılır.

Belə olan halda, Vergi Məcəlləsinin 166.1-ci maddəsinə əsasən, əməliyyat üçün ödəmə 30 gün müddətində ödənildiyi üçün iyun ayının 5-də ödənilmiş hissə üzrə əməliyyat cari ilin iyun ayında aparılmış əməliyyat hesab edilir.

İyul ayının 20-də ödənilən hissə üzrə ödəniş 30 gündən sonra həyata keçirildiyi üçün malların göndərildiyi (işlərin görüldüyü, xidmətin göstərildiyi) və ya təqdim edildiyi vaxtda, yəni iyun ayında aparılmış əməliyyat sayılır.

# İslam maliyyələşmə kartları bazara çıxarılacaq

*Bir sıra ölkələrin iri banklarında «İslam pəncərəsi» xidməti fəaliyyət göstərir. İslam pəncərəsi - İslam maliyyə sisteminin tərkib hissəsidir və bank əməliyyatları İslam bankçılığı prinsipləri əsasında aparılır. Ölkəmiz üçün yeni olan bu sistem, əsasən, Fars körfəzi ölkələrində, Misir, Malayziya, Türkiyə, eləcə də Rusiya, ABŞ, və Böyük Britaniyada inkişaf edib. London şəhəri İslam bankçılığı mərkəzlərindən biri hesab olunur.*

Ölkəmizdə bu sistemə keçid məqsədilə ötən ilin sonlarından Azərbaycan Beynəlxalq Bankının nəzdində İslam bankçılığı departamenti yaradılmışdır. İslam bankçılığının tətbiqi respublikamızda bank sisteminin inkişafının yeni mərhələsi olduğu üçün onunla ənənəvi bankçılıq arasındakı fərqlər, müştərilərə veriləcək üstünlüklər barədə ictimaiyyət arasında daim fikir mübadiləsi aparılır. Qeyd etmək lazımdır ki, İslam bankçılığının xüsusiyyətləri maliyyə bazarlarında maddi aktvilərə əsaslanan əməliyyatların aparılması, pullardan əmtəə şəklində istifadə edilə bilməməsi, maliyyələşdirmələrin faiz hesablanması metodu əsasında aparılmaması, İslam dini ilə qadağan olunmuş məhsulların istehsalı, ticarəti ilə bağlı xidmət növlərinin maliyyələşdirilməməsi, maliyyə bazarlarında bütün əməliyyatların şəffaf və aydın xarakterdə aparılmasıdır. Bunların nəticəsində maliyyə bazarlarda sabitliyin və etibarlılığın təmin olunması üçün şərait yaradılmış olur. İslam bankçılığı sistemi, başlıca olaraq, investisiya maliyyələşdirmə sisteminə əsaslandığından, ölkə iqtisadiyyatının güclənməsinə xidmət edir.




İslam bankçılığında iqtisadi münasibətlər, əsasən, tərəfdaşlıq prinsiplərinə söykənir. Şəriklik prinsipi əsasında aparılan investisiya layihələrində bank, mənfəətlə yanaşı, biznes prosesində əmələ gələn zərərləri də müştəri ilə bölüşür. Bu da hər iki tərəfin məsuliyyətini ikiqat artırır. İslam bankçılığı həm də bütün müqavilələrdə, gələcəkdə iqtisadi mübahisələrin yaranmasına səbəb ola biləcək qeyri-müəyyən xarakterli müddəaların mövcud olmasına yol vermir.

Ölkəmizdə İslam bankçılığının fəaliyyətə başlamasının bank sistemində rəqabətin artmasına və bu rəqabətin müştərilərin xeyrinə olacağı istisna edilmir. Bu rəqabətin yaranmasına təkan verə biləcək xidmətlər artıq özünü çox gözlətmir: iyul ayından etibarən İslam maliyyələşmə kartları bazara çıxarılacaq. Bu kartların özəlliyi isə ondan ibarətdir ki, kartlarla ödəniş faizsiz həyata keçiriləcək. Bankların həmin kartlardan qazancı isə konkret müəyyənləşdirilmiş komissiya haqqının tətbiqi ilə bağlı olacaq. Azərbaycan Beynəlxalq Bankının İslam bankçılığı departamentinin direktoru Bəhnam Qurbanzadənin sözlərinə görə, üç cür - ticarət, jasmin və premium tipli kartlar pərakəndə alış-veriş mərkəzlərində tətbiq olunacaq. Bank ilə alış-veriş mərkəzləri arasında müqavilə imzalanacaq və satışdan əldə olunan mənfəət bölünəcək.Jasmin kartlar yalnız qadınlar üçün nəzərdə tutulub. Bu kartlarla qadınlar alış-veriş etdikləri yerlərdə endirimlər əldə edə bilərlər. Həmçinin, bu kartlara kredit limiti də veriləcək. Premium kartlar isə «MasterCard»la birgə işlənib və MDB məkanında ilk smart-kartdır. Bu kartın üzərindəki kompas dünyanın 125 şəhərində qibləni göstərir. Azərbaycan Beynəlxalq Bankı İslam bankçılığının tətbiqi ilə bağlı İslam ölkələrindən 100 milyon dollar məbləğində kredit cəlb edib. B. Qurbanzadənin sözlərinə görə, bu, MDB ölkələri arasında ilk irihəcmli məbləğdir.

**AYTƏN**

# Vergi islahatlarının strateji hədəfləri

## «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası ilə vergi orqanları qarşısında müəyyənləşdirilmiş vəzifələrin həyata keçirilməsinə başlanılmışdır

*Ölkənin taraz və davamlı inkişafının təmin oluması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, cəmiyyətin bütün istiqamətlərdə tərəqqisinin sürətləndirilməsi məqsədini önə çəkən «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası digər dövlət orqanları ilə yanaşı, Vergilər Nazirliyi qarşısında da bir sıra mühüm vəzifələr müəyyənləşdirmişdir. Konsepsiyada iqtisadi sistemin rəqabət qabiliyyətinin gücləndirilməsi məqsədilə aktiv vergi siyasətinə keçid, vergi dərəcələrinin optimallaşdırılması, vergi ödəyiciləri üçün daha əlverişli şəraitin yaradılması və digər hədəflərin reallaşdırılması nəzərdə tutulur.*

**Uzunmüddətli inkişaf strategiyası**

Son illər ölkə iqtisadiyyatının inkişaf tempinə adekvat olaraq vergi sisteminin təkmilləşdirilməsi, vergi ödəyicilərinə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi, vergi qanunvericiliyinin təkmilləşdirilməsi, vergi inzibatçılığının müasir tələblər səviyyəsində qurulması və digər istiqamətlərdə mühüm nailiyyətlər əldə edilmişdir. Lakin iqtisadi inkişafın dinamik xarakter daşıması vergi siyasətinin daim təkmilləşdirilməsini, onun daha çevik iqtisadi tənzimləmə mexanizmlərinə malik olmasını zərurətə çevirir. Bu hədəflərin reallaşdırılması məqsədilə Vergilər Nazirliyində «Vergi sisteminin inkişafı üzrə 2013-2020-ci illər üçün Strateji Plan» və «2013-2020-ci illərdə vergi sisteminin inkişafı strategiyası» hazırlanmışdır. Hər iki konseptual sənəd 2020-ci ilədək vergilər sahəsində həyata keçirilməli islahatların fundamental əsaslarını və reallaşdırılma mexanizmlərini özündə ehtiva edir. Sənəddə biznes mühitinin daha da liberallaşdırılmasına, sahibkarlığın inkişafının sürətləndirilməsinə, eləcə də nağdsız ödəniş sisteminin inkişafına, əmək münasibətlərinin leqallaşdırılmasına və s. xidmət edən tədbirlərin gerçəkləşdirilməsi nəzərdə tutulur.

**Qeyri-neft sektorunun inkişafı stimullaşdırılacaq**

«2013-2020-ci illərdə vergi sisteminin inkişafı strategiyası»nın başlıca missiyası Azərbaycanın iqtisadi inkişaf hədəflərinə nail olmaq üçün mütərəqqi, mükəmməl və beynəlxalq standartlara cavab verən vergi sisteminin formalaşdırılmasıdır. Sənəddə qeyri-neft sektorunun inkişafının stimullaşdırılması, vergi daxilolmalarının həcminin artırılması, innovasiya yönümlü iqtisadiyyatın inkişafını təmin edən, qeyri-neft sektorunun ixrac potensialını gücləndirən vergi siyasətinin formalaşdırılması məqsədləri də önə çəkilir. Bundan başqa, vergi ödəyiciləri ilə vergi orqanları arasında partnyorluq prinsiplərinə əsaslanan əməkdaşlıq mexanizmlərinin yaradılması, əhalinin vergi mədəniyyətinin yüksəldilməsi, vergiödəmə vərdişlərinin cəmiyyətin əxlaq normasına çevrilməsi kimi məqsədlərin reallaşdırılması istiqamətində ardıcıl və sistemli tədbirlər görüləcəkdir.

Ümumilikdə, qarşıya qoyulmuş başlıca hədəf yaxın perspektivdə Azərbaycanın vergi sisteminin sosial-iqtisadi inkişafın təmin edilməsində, sahibkarlığın inkişafının sürətləndirilməsində, büdcə gəlirlərinin formalaşmasında əsas mənbə kimi tanınmasını təmin etməkdir. Strategiyada göstərilir ki, bu və digər tədbirlərin reallaşdırılması daha çevik və qarşıya qoyulan vəzifələri operativ həll etmək imkanlarına malik mərkəzi icra hakimiyyəti orqanı kimi Vergilər Nazirliyi fəaliyyətini daha da gücləndirəcəkdir. İnformasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi, elektron xidmətlərin keyfiyyətcə yeni prinsiplər əsasında qurulması nazirliyin bu sahədə tutduğu mövqeni əhəmiyyətli dərəcədə artıracaqdır.

**Qanunvericilik daha da təkmilləşdiriləcək**

«2013-2020-ci illərdə vergi sisteminin inkişafı strategiyası»nın həyata keçirilməsi zamanı bütün vergi ödəyiciləri üçün bərabər və ədalətli şəraitin yaradılması, vergi ödəyicilərinin öz öhdəliklərini tam və vaxtında yerinə yetirmələri, eyni zamanda vergi orqanlarının inzibati xərclərinin və vergi nəzarəti sahəsindəki bəzi çətinliklərin azaldılması üçün vergi sisteminin mümkün qədər sadələşdirilməsi, səmərəliliyin, rəqabət qabiliyyətinin, şəffaflığın, məqsədyönlülüyün təmini diqqət mərkəzində olacaqdır.

Strategiya çərçivəsində vergi qanunvericiliyinin Avropa Birliyi qanunvericiliyinə və Ümumdünya Ticarət Təşkilatının (ÜTT) tələblərinə uyğunlaşdırılması əsas vəzifələrdən biri kimi önə çəkilir. Bu məqsədlə aksizli malların idxalına və daxildə istehsalına tətbiq olunan aksiz dərəcələrinin eyniləşdirilməsi, vergi qanunvericiliyinin Avropa Birliyi direktivlərinə və ÜTT-nin tələblərinə uyğunlaşdırılması prosesinin davam etdirilməsi nəzərdə tutulur.

**Daha çevik və qarşıya qoyulan vəzifələri operativ həll etmək imkanlarına malik mərkəzi icra hakimiyyəti orqanı kimi Vergilər Nazirliyi fəaliyyətini daha da gücləndirəcəkdir**

Digər əsas vəzifələrdən biri isə passiv vergi siyasətindən aktiv vergi siyasətinə keçidə nail olmaqdır. Vergi yükünün tədricən istehsaldan istehlaka keçirilməsi məqsədilə iqtisadiyyatın innovativ inkişafının və modernləşdirilməsinin təmini istiqamətində araşdırmaların aparılması, vergi dərəcələrinin optimal qiymətlərinin müəyyənləşdirilməsi üçün elmi cəhətdən əsaslandırılmış təkliflərin hazırlanması diqqət mərkəzində olacaqdır.

2020-ci ilədək vergilər üzrə güzəşt və azadolmaların səmərəliliyinin qiymətləndirilməsi də vacib məsələlərdəndir. Qeyri-neft sektorunun sürətli inkişafı və onun ixrac potensialının gücləndirilməsi məqsədilə bu sahədə tətbiq olunan vergi güzəştlərinin monitorinqinin aparılması, onların bir qisminin ləğvi və yenilərinin tətbiqi istiqamətində tədbirlərin davam etdirilməsi nəzərdə tutulur.

**Vergi mədəniyyətinin yüksəldilməsi əsas hədəflərdəndir**

Vergi ödəyicilərinə xidmət sisteminin daha da yüksəldilməsi və təkmilləşdirilməsi də mühüm hədəflər sırasındadır. Bu təkmilləşdirmələrin əsas istiqamətini vergi ödəyiciləri ilə vergi orqanları arasında partnyorluq münasibətlərinin yaradılması təşkil edəcəkdir. Eyni zamanda, özəl vergi məsləhətçiləri, vergi ombudsmanı institutlarının yaradılması, vergi ödəyicilərinə xidmət mərkəzlərində göstərilən xidmətlərin spektrinin genişləndirilməsi, ünvanlı xidmətlərin əhatə dairəsinin artırılması və digər məqsədlər nəzərdə tutulmuşdur.

Strategiyada, bütün bunlarla yanaşı, həm də əhalinin vergi mədəniyyətinin yüksəldilməsi, gələcəyin intizamlı, savadlı vergi ödəyicilərinin formalaşdırılması, bu sahədə beynəlxalq təcrübənin araşdırılaraq müvafiq təkliflərin verilməsi, məlumatlandırma vasitələrinin, xüsusi dərslik və tədris vəsaitlərinin hazırlanması nəzərdə tutulur. Vergi ödəyiciləri, o cümlədən, əhalinin bütün təbəqələri arasında vergi mədəniyyətinin yüksəldilməsinə xidmət edən məlumatlandırma, maarifləndirmə və təbliğat işinin səmərəliliyinin artırılması məqsədilə ictimai birliklər və təhsil müəssisələri ilə əməkdaşlığın genişləndirilməsi, müvafiq tədris-metodiki təlimatların hazırlanması planlaşdırılır. Strategiya çərçivəsində həyata keçirilən islahatların KİV-də geniş işıqlandırılması da qarşıya qoyulmuş vəzifələr sırasındadır.

**S.MUSTAFAYEV**

# Azərbaycanın Qərbə açılan yeni enerji dəhlizi - Trans Adriatik boru kəməri

Azərbaycan dövləti «Şahdəniz 2» layihəsi çərçivəsində hasil ediləcək təbii qazın Avropaya çatdırılması üçün boru kəmərinin seçilməsi ilə bağlı qərarını rəsmən açıqladı. Hökumət «Şahdəniz 2» konsorsiumu ilə birgə qazın Qərbə nəqli üçün ən rentabelli, təhlükəsizlik, səmərəlilik və kommersiyaya baxımından Trans Adriatik boru kəməri (TAP ) layihəsinin düzgün seçim olmasına qərar verib. Yanacaq və energetika naziri Natiq Əliyevin sözlərinə görə, bu marşrutu seçməklə Azərbaycan özünün Avropanın enerji təchizatçısına çevrilməsi üçün mühüm addımlardan birini atdı. Bu qərar respublikamız üçün mühüm iqtisadi və siyasi əhəmiyyətli hadisə sayılır və TAP təbii qaz boru kəməri layihəsi strateji baxımdan dünya üçün böyük maraq doğurur.

N.Əliyevin fikrincə, TAP layihəsi Avropanın enerji xəritəsini dəyişəcək və əməkdaşlıq üçün yeni imkanlar açacaq. TAP-ın əsas mənbəyi «Şahdəniz» yatağının tammiqyaslı işlənməsinin ikinci mərhələsi çərçivəsində hasil olunacaq təbii qazdır. Proqnozlara əsasən, bu mərhələ üzrə hasilata 2016-cı ildə başlanacaq, kəmərin tikintisinə isə üç il vaxt tələb olunacaq. Yataqdan hasil olunacaq qazın nəqli ilkin mərhələdə illik 10 milyard kubmetr olacaq. Sonrakı mərhələdə isə TAP vasitəsilə Azərbaycandan Avropaya ildə 16 milyard kubmetr qaz çatdırılacaq. O da qeyd olunur ki, TAP-la nəql olunacaq əsas qaz «Şahdəniz» yatağı ilə məhdudlaşmayacaq. N.Əliyev bildirmişdir ki, ölkəmizin təsdiq olunmuş 2 trilyon kubmetr həcmində qaz ehtiyatları var və digər perspektiv yataqların ehtiyatları da Qərbə bu marşrutla ixrac oluna bilər...

BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qordon Birell «Şahdəniz 2» konsorsiumunun addımını tarixı qərar hesab etdiyini bildirib. Qeyd olunub ki, iki il əvvəl Avropa Komissiyasının sədri Xose Manuel Barrozunun respublikamıza səfəri zamanı Avropa İttifaqı ilə Azərbaycan arasında «Cənub» qaz dəhlizinə dair Anlaşma Memorandumu imzalanması bu qərarın qəbul olunmasında açar rolunu oynayıb. Bütün tərəflər Avropa üçün strateji əhəmiyyətə malik olan bu layihənin reallaşması istiqamətində səy göstərib. Qeyd olunduğuna görə, TAP «Cənub» qaz dəhlizinin ən mühüm komponenti olmaqla Avropanın uzunmüddətli enerji təminatında strateji əhəmiyyət kəsb edir. Cənab Birellin fikrincə, hazırda layihənin bir sıra detalları üzərində iş gedir: bura kəmərin maliyyə və kommersiya, təhlükəsizlik, şəffaflıq, səmərəli fəaliyyət və digər komponentləri daxildir. Tərəfdaş şirkətlər yaxın aylar ərzində kommersiya və digər maliyyə məsələlərini həll edəcək, bundan sonra kəmərin çəkilişi ilə bağlı sərmayə sazişi imzalanacaq. Bu proseslərin 2013-cü ilin sonuna kimi yekunlaşması gözlənilir.

Qordon Birell «Şahdəniz 2» layihəsinə təxminən 40 milyard dollar həcmində sərmayə qoyulacağını diqqətə çatdırıb. O da qeyd olunub ki, layihəyə əlavə qaz infrastrukturunun yaradılması ilə bağlı işlər də daxildir. Gələcəkdə «Şəfəq-Asiman» kimi qaz yataqlarından hasil olunan yanacağın Avropaya nəqli məqsədilə Səngəçal və digər obyektlərin genişləndirilməsi də nəzərdə tutulur.

TAP-ın icraçı direktoru Kjetil Tunqland bildirib ki, uzunluğu 870 km olacaq TAP kəməri Azərbaycan qazını Türkiyə, Yunanıstan, Albaniya ərazisi ilə İtaliyaya çatdıracaq. Qazın Yunanıstandan digər kommunikasiya infrastrukturları vasitəsilə Bolqarıstana, eləcə də Adriatik dənizindən çoxşəbəkəli sistemlər vasitəsilə Bosniya və Hersoqovina, Xorvatiya, Serbiya və Çernoqoriyaya çatdırılması nəzərdə tutulur. Ümumilikdə, TAP vasitəsilə Şərqi-Qərbi Avropa regionu ölkələri qazla təmin olunacaq. Dəyəri təxminən 2,2 milyard dollar proqnozlaşdırılan TAP layihəsinin 3 səhmdarı («EGL», «Statoil» və «E.ON Ruhrgas») var.

Azərbaycan hökumətinin TAP-la bağlı qərarı ABŞ və Avropa Birliyi tərəfindən böyük maraqla qaşılanıb. Qərar yeni enerji əməkdaşlığının simvolu, qlobal miqyasda mühüm əhəmiyyət daşıyan iqtisadi-siyasi hadisə kimi səciyyələndirilir. Dünya dövlətləri əsrin ən mühüm tranzit sazişlərindən birinin imzalanmasını təkcə bu regionun ölkələrinin enerji təhlükəsizliyi üçün deyil, ümumilikdə bütün Avropa və Qərb üçün starteji əhəmiyyətə malik sistem kimi qiymətləndirirlər. Sazişin imzalanmasına müsbət reaksiya verən ABŞ hökuməti nəql olunacaq yanacağın bölgədə əməkdaşlıq formatının güclənməsinə, təhlükəsizlik şəbəkələri sisteminin möhkəmlənməsinə səbəb olacağını diqqətə çatdırır.

Avropa Birliyi də bu qərarı yüksək əhval-ruhiyyə ilə qarşılayıb. Avropa Komissiyasının sədri Xose Manuel Barrozu TAP-la bağlı yekun qərarın verilməsindən sonra bəyanatla çıxış edib. Avropa Birliyinin bu qərarı alqışladığını bildirən cənab Barrozu qeyd edib ki, Türkiyədə tikilməkdə olan TANAP boru kəmərini nəzərə aldıqda yeni qaz infrastrukturu - TAP layihəsi Xəzər dənizini Avropa ilə birbaşa əlaqələndirəcək: «Bu, Avropanın birgə uğuru və AB-nin enerji təhlükəsizliyinin gücləndirilməsində dönüş nöqtəsidir. Bu qərar Xəzər dənizindən Avropa Birliyinə birbaşa keçid olacaq və tədricən genişlənəcək «Cənub» qaz dəhlizinin tam və çevik şəkildə reallaşmasına daha böyük təkan verəcək». X.M.Barrozu əmin olduğunu bildirib ki, Avropa Birliyinin artıq qazla bağlı yeni tərəfdaşı var və biz gələcəkdə daha çox qaz qəbul edəcəyimizə inanırıq.

**Elbrus CƏFƏRLİ**

# İşçilərin sosial hüquqlarının qorunmasına diqqət artırılacaq

*Məqsəd işəgötürənlərə yaradılan əlverişli şərait sayəsində işçilərlə əmək müqavilələrinin bağlanmasını təmin etməklə vergi və digər ödənişlərin həyata keçirilməsinə əlverişli şərait yaratmaqdır*

*Ölkəmizdə yeni-yeni iş yerlərinin açılmasına baxmayaraq, əmək müqavilələrinin olmaması ucbatından bu iş yerlərinin dövlət tərəfindən qeydiyyatının həyata keçirilməsində problemlər yaranır. Boş iş yerlərinə işçi qəbulu zamanı çox vaxt əmək müqaviləsi bağlanılmır və məsələ gizli razılaşmalar yolu ilə «tənzimlənir». Nəticədə vergi ödənişləri və Dövlət Sosial Müdafiə Fonduna ödəmələr yerinə yetirilmir, qanunvericiliyin tələbləri kobud şəkildə pozulur, dövlətə külli miqdarda ziyan dəyir.*




***Əmək müqavilələrinin bağlanmaması vergidən yayınmanın əsas səbəblərindən biridir***

Ölkə başçısının «Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında» 31 may 2005-ci il tarixli fərmanında Vergilər Nazirliyinə əmək müqaviləsi bağlanılmadan fiziki şəxslərin işə cəlb edilməsinə nəzarəti gücləndirmək tapşırılmışdır. Bununla yanaşı, Nazirlər Kabinetinin 2012-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyev qeyd etmişdir ki, iqtisadiyyatın müxtəlif sektorlarında çalışanların bir qisminin qeyri-qanuni işləməsi, maaşların qeyri-leqal şəkildə verilməsi vergilərdən yayınmağa, ölkənin bugünkü sosial vəziyyətinin real əks etdirilməməsinə səbəb olur. Buna görə də gəlir vergisi üzrə vergitutma bazasının leqallaşdırılması istiqamətində vergi orqanlarının üzərinə konkret vəzifələr qoyulmuşdur.

Vergidənyayınma hallarının qarşısının alınması, əlavə vergi potensialının müəyyən edilməsi məqsədilə işçi sayının və iş yerlərinin düzgün rəsmiləşdirilməsinin təmin olunması məqsədilə vergilər nazirinin 18 iyul 2012-ci il tarixli əmri ilə «İşəgötürənlər tərəfindən iş yerlərinin rəsmiləşdirilməməsi hallarının qarşısının alınması istiqamətində görüləcək işlərə dair» Tədbirlər Planı təsdiq olunmuş və bu sahəyə çevik nəzarətin təmin edilməsi üçün Qərargah yaradılmışdır.

Vergilər Nazirliyi tərəfindən həyata keçirilmiş kompleks tədbirlər nəticəsində 1 iyul 2013-cü il tarixə 57248 vergi ödəyicisində 195903 işçi ilə əlavə əmək müqavilələrinin bağlanılması təmin edilmişdir. Cari ilin may ayında həyata keçirilmiş operativ nəzarət tədbirləri zamanı 489 vergi ödəyicisi tərəfindən 769 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi aşkarlanmışdır.

Həyata keçirilən nəzarət tədbirləri, vergi qanunvericiliyinə edilən son dəyişikliklər, aparılan maarifləndirmə və məlumatlandırma işləri öz bəhrəsini verməkdədir. Artıq böyük əksəriyyət əmək müqaviləsi bağlanmadan işləməyin gələcəkdə onların həyatında hansı fəsadlara yol açacağını yaxşı bilir. Eyni zamanda, artıq işəgötürənlər də işçilərlə əmək müqaviləsi bağlamadan fəaliyyətin hansı nəticələrə gətirib çıxaracağını dərk edirlər.

***Stimullaşdırıcı tədbirlərlə yanaşı, cəza tədbirləri də sərtləşdirilib***

Bazar iqtisadiyyatı vergi yolu ilə tənzimləndiyindən vergi ödəyiciləri bu sistemin tələblərini başa düşərək, özləri əmək müqavilələrinin bağlanmasında maraqlı tərəf kimi çıxış etməlidirlər. Hər kəs bilməlidir ki, əmək müqavilələrinin bağlanmaması vergidənyayınmanın əsas səbəblərindən biridir və bu, dövlət büdcəsinə daxilolmalara mənfi təsir göstərir. Hökumət məhz bu amilləri nəzərə alaraq iş yerlərinin leqallaşdırılmasının stimullaşdırılması üçün müvafiq tədbirlər həyata keçirir. Belə tədbirlərdən biri də vergi dərəcələrinin aşağı salınmasıdır. Vergi Məcəlləsində edilmiş son dəyişikliklərə əsasən, fiziki şəxslərdən gəlir vergisinin maksimum dərəcəsi 30%-dən 25%-ə endirilmiş, minimum dərəcənin tətbiq olunduğu məbləğin isə 2000 manatdan 2500 manata qaldırılması əmək müqavilələrinin leqallaşdırılması üçün stimul hesab olunur.

Onu da qeyd edək ki, Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi bağlamadan işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işin yerinə yetirilməsinə cəlb edilməsi qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyətə səbəb olur. Belə ki, İnzibati Xətalar Məcəlləsinin 53.1-ci maddəsinə edilmiş son dəyişikliklərə görə, Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontrakt) bağlamadan işəgötürənlər tərəfindən fiziki şəxsin hər hansı işin (xidmətin) yerinə yetirilməsinə cəlb edilməsinə görə vəzifəli şəxslər 3000 manatdan 5000 manatadək, hüquqi şəxslər 20 min manatdan 25 min manatadək cərimə edilir.

Vergi Məcəlləsinin 58.10-cu maddəsində qeyd edilmişdir ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) bağlamadan işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə işəgötürənə hər bir belə şəxs üzrə 1000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Cinayət Məcəlləsinin 213-cü maddəsinə əsasən, xeyli miqdarda vergiləri və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma cinayət əməli hesab edilir və qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

***Əmək bazarı daha da canlandırılacaq***

«Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında müəyyən olunmuş vəzifələrdən biri də əmək bazarında baş verən dəyişikliklərə uyğun tədbirlərin görülməsidir. Əmək bazarındakı vəziyyət ciddi təhlil olunacaq, perspektiv inkişaf üçün vergi baxımından hansı addımların atılması müəyyənləşdiriləcək. Ödəyicilər cərimələnməklə, inzibati yollarla yox, daha çox səmərəli iqtisadi mexanizmlərin tətbiqi ilə ödənişləri yerinə yetirməyə sövq ediləcəklər. Məqsəd əmək bazarını daha da canlandırmaq, işəgötürənlərə yaradılan əlverişli şərait sayəsində işçilərin sosial hüquqlarını qorumaq, vergi və digər ödənişlərin həyata keçirilməsinə, bu ödənişlər hesabına dövlət büdcəsinin artımına nail olmaqdır.

**Rəşad SADIQOV**

# Sosial sığorta - gələcəyin təminatı

*Dövlət Sosial Müdafiə Fondunun məlumatına görə, hazırda məcburi dövlət sosial sığortası sistemində 339 mindən çox sığortaedən uçota alınmışdır ki, bunun da 77,5 mini hüquqi şəxs, 165,1 mini sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs və 96,4 mini isə torpaq pay mülkiyyətçisi statusuna malikdir.*

Hüquqi şəxs kimi uçota alınanların bütün uçotda olan sığortaedənlərin 22,9%-ni təşkil etməsinə baxmayaraq, Dövlət Sosial Müdafiə Fonduna məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların 97,6%-ni məhz onlar təmin edirlər. Sığortaolunanların da böyük əksəriyyəti hüquqi şəxslər tərəfindən sosial sığorta sistemində uçota alınmışlar.

Məcburi dövlət sosial sığorta haqları üzrə Dövlət Sosial Müdafiə Fondunun gəlirlərinin əsas hissəsi işəgötürənlər tərəfindən təmin edilir. Qanunvericiliyə uyğun olaraq, hazırda bütün işəgötürənlər hesablanmış əməyin ödənişi fondunun və məcburi dövlət sosial sığortasına cəlb olunan digər gəlirlərin 22%-i miqdarında, işçilər isə hesablanmış əməkhaqqının 3%-i miqdarında məcburi dövlət sosial sığorta haqqı ödəyirlər.

Mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən şəxslər üçün məcburi dövlət sosial sığorta haqqı dərəcələri onların əmək qabiliyyətli ailə üzvlərinin sayından, mülkiyyətində olan torpaqların sahələrinin keyfiyyət qruplarından və minimum aylıq əməkhaqqı məbləğindən asılı olaraq müəyyən edilmişdir.

DSMF tərəfindən sığortaolunanların məcburi dövlət sosial sığorta sistemində uçotunun daha rahat həyata keçirilməsi məqsədilə «Sığortaolunanın onlayn uçota alınması» xidməti istifadəyə verilmişdir. Xidmətin icra müddəti 1 aydır. Bu xidmətin göstərilməsi nəticəsində DSMF-nin departamentləri, rayon (şəhər) şöbələri, Naxçıvan Muxtar Respublikası DSMF-nin rayon (şəhər) şöbələri sığortaolunanlar haqqında sığortaedən tərəfindən təqdim edilmiş elektron ərizələrə əsasən hər bir sığortaolunan üçün fərdi şəxsi hesab açır və onun soyadı, adı, atasının adı, doğulduğu tarix, doğulduğu yer, cinsi və sosial sığorta nömrəsi əks olunan dövlət sosial sığorta şəhadətnaməsini rəsmiləşdirir. Bu xidmətin göstərilməsi üçün heç bir sənəd və ödəniş nəzərdə tutulmayıb.

Elektron xidmətdən istifadə üçün sığortaedən https://www.e-gov.az internet ünvanına daxil olur, «Sığortaolunanın onlayn uçota alınması» elektron xidmətini seçir və müvafiq xanaları dolduraraq sorğu verir. Elektron formada tərtib olunmuş ərizə DSMF orqanı tərəfindən qəbul edilir və bu barədə sığortaedənə elektron təsdiqetmə bildirişi göndərilir. Təqdim edilmiş elektron ərizə formaları yoxlandıqdan sonra sığortaolunan üçün fərdi şəxsi hesab açılır. Əgər sığortaolunan artıq uçotdadırsa, sorğunun yerinə yetirilməsindən imtina edilir.

Sığortaolunanlar fərdi hesablarında toplanmış sosial sığorta haqlarının məbləği barədə məlumatları da elektron formada ala bilərlər. «Sığortaolunanlara məlumatların verilməsi» adlı müasir məlumatlandırma sistemi vətəndaşların gələcək pensiya təminatında, şəffaflığın təmin edilməsində olduqca əhəmiyyətlidir və avtomatlaşdırılmış pensiya təyinatına keçidin əsas elementidir.

*İndiyədək DSMF tərəfindən 2 milyon 530 mindən artıq sığortaolunana fərdi şəxsi hesab açılmışdır və həmin şəxslər bu xidmətdən yararlanmaq imkanına malikdirlər*

İndiyədək DSMF tərəfindən 2 milyon 530 mindən artıq sığortaolunana fərdi şəxsi hesab açılmışdır və həmin şəxslər bu xidmətdən yararlanmaq imkanına malikdirlər. Əmək müqaviləsi ilə işləyən hər bir vətəndaş DSMF-nin saytına daxil olmaqla (www.dsmf.gov.az) sığortaedən tərəfindən hər ay üzrə ödənilən məcburi dövlət sosial sığortası barədə məlumatlarla maneəsiz tanış ola, öz pensiya kapitalına, eləcə də işəgötürəninə nəzarət etmək imkanından istifadə edə bilər.

**AYTƏN**

# İnsan inkişafı ilə bağlı göstəricilər yüksəlir

*Azərbaycan yoxsulluğun səviyyəsinin azaldılması sahəsində böyük nailiyyətlər qazanıb. Son illər ölkə iqtisadiyyatının yüksək artım templəri nümayiş etdirməsi və iqtisadi fəallığın artması yoxsulluğun azaldılmasına əhəmiyyətli dərəcədə təsir göstərib.*

Azərbaycan BMT-nin üzv ölkələrinin və dünyada inkişaf üzrə bütün qabaqcıl təşkilatların qəbul etdiyi Minilliyin İnkişaf Hədəfləri çərçivəsində yoxsulluğa təsir edən bütün istiqamətlər üzrə ciddi irəliləyişlər əldə edib. Sosial sahədə keyfiyyətli və ləyaqətli insan yaşayışı normalarının möhkəmlənməsi müşahidə olunur. Bu barədə Dünya Bankının (DB) Bakı nümayəndəliyinin rəhbəri Larisa Leşenko bildirib. Xanım Leşenko deyib ki, Azərbaycanda yoxsulluğun qiymətləndirilməsi meyarları BMT-nin meyarlarına tam uyğundur və yaxın illərdə ölkədə yoxsulluğun həddi ən aşağı səviyyəyə enə bilər.

Azərbaycan artıq BMT-nin insan sosiumu ilə bağlı əsas konsepsiyası olan Minilliyin Hədəflərindən çoxuna nail olub, onlar arasında sosial xidmətlərin təkmilləşdirilməsi və yoxsulluğun azaldılması seqmenti üzrə yüksək nəticələr əldə edib. BMT-nin meyarlarına görə, inkişaf etməkdə olan dövlətlər üçün yoxsulluq həddi bir nəfər üçün gündəlik 4 dollar, inkişaf etmiş ölkələr üçün isə 14,4 dollar civarında müəyyənləşdirilib. Həyata keçirilən ardıcıl tədbirlərin nəticəsi olaraq, son illər ölkədə yoxsulluğun səviyyəsi ciddi şəkildə azalıb. 2003-cü ildən indiyədək Azərbaycanda yoxsulluq həddi 8 dəfədən çox azalaraq 49%-dən 5,6%-ə enib. 2004-cü ildə yoxsulluq həddi ilə bağlı müəyyən edilmiş indeks 38,8 manat olduğu halda, hazırda bu göstərici 100 manata çatıb. Həyata keçirilən tədbirlər qısa müddətdə respublikamızda mütləq yoxsulluq tam aradan qalxıb, nisbi yoxsulluq isə yerini orta təbəqənin sosial qruplarına verməkdədir.

BMT İnkişaf Proqramının ekspertlərinin qənaətinə görə, son illərdə Azərbaycan bir çox göstəricilər üzrə xeyli irəliləyişlər əldə edib. Ölkəmiz ümumi daxili məhsulun (ÜDM) artımı, insanların gəlir əldə etmək imkanlarının yaxşılaşması, məşğulluğun artırılması, yoxsulluğun səviyyəsinin azaldılması, vətəndaşların sosial rifah halının yüksəlməsi, onların keyfiyyətli təhsil, səhiyyə və sosial infrastruktur xidmətləri ilə əhatə olunması baxımından mühüm nailiyyətlər qazanıb. Bu illər ərzində insanların həyat şəraiti yaxşılaşıb, adambaşına düşən milli gəlir 400% artıb.

Respublikamızın qeyd olunan göstəricilər üzrə müsbət meyillər əldə etməsinin başlıca səbəbləri siyasi, iqtisadi, sosial, ictimai, humantiar, hüquqi, elmi, mədəni sahələrdə aparılan kompleks və davamlı islahatların həyata keçirilməsi ilə bağlıdır.

*2003-cü ildən indiyədək Azərbaycanda yoxsulluq həddi 8 dəfədən çox azalaraq 49%-dən 5,6%-ə enib*

Yoxsulluq probleminin həllini əsas sosial hədəflərdən biri hesab edən Azərbaycan dövləti maliyyə resurslarının və büdcə gəlirlərinin əsas xərc istiqamətlərini vətəndaşların rifah halının yaxşılaşmasına, aztəminatlı ailələrin sosial müdafiəsi, sosial sahədə mövcud olan bütün problemlərin aradan qaldırılması ilə bağlı tədbirlərin gücləndirilməsinə yönəldib. Regionlarda fəaliyyət göstərən müəssisələrin sayının artırılması, burada çalışan insanların sosial şəraitinin gücləndirilməsi istiqamətində atılan addımlar öz bəhrəsini verib. Hökumət bir neçə ildir ki, aztəminatlı ailələrin ünvanlı yardımla əhatə olunmaları üçün məqsədyönlü tədbirləri gücləndirib. Bütün bu kompleks tədbirlər insanların yaşayış şəraitinin yaxşılaşmasına səbəb olmaqla yanaşı, respublikamızda yoxsulluğun azaldılmasına da öz təsirini göstərməkdədir.

İqtisadi İnkişaf Nazirliyinin İqtisadi siyasət, təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Ədalət Muradovun sözlərinə görə, Azərbaycan hökuməti yoxsulluğun səviyyəsini daha da azaltmaq və insan inkişafı indeksi ilə bağlı göstəriciləri inkişaf etmiş ölkələrin göstəricilərinə çatdırmaq üçün qarşıdakı illərdə bir sıra iqtisadi və sosial hədəflər müəyyənləşdirib. Bunun üçün əsas meyarlar iqtisadiyyatın qeyri-neft sektorunun yüksək inkişafını təmin etməkdir. Orta dövr üçün başlıca strateji hədəflər makroiqtisadi sabitliyi saxlamaq və qeyri-neft sektorunu inkişaf etdirməklə iqtisadi artımın davamlılığını təmin etmək, ümumi daxili məhsulun həcmini 2 dəfə, qeyri-neft sektoru üzrə ÜDM-in real həcmini 2 dəfə artırmaq və bu sektor üzrə ÜDM-in orta illik real artım tempinə minimum 7-8% civarında nail olmaq, inflyasiya səviyyəsini idarə olunan həddə və birrəqəmli çərçivədə saxlamaq, səmərəli sosial müdafiə sistemini inkişaf etdirməklə əhalinin gəlir əldə etmək imkanlarını genişləndirmək və beləliklə, yoxsul əhalinin sayını əhəmiyyətli dərəcədə azaltmaqdır. Bu kompleks islahatlara, həmçinin, səmərəli sosial müdafiə sistemini inkişaf etdirməklə aztəminatlı ailələrin və sosial cəhətdən ehtiyacı olan insanların yaşayış imkanlarının gücləndirilməsi, sosial infrastrukturun inkişaf etdirilməsi, kommunal xidmətlər sisteminin təkmilləşdirilməsi, təhsil və səhiyyə sahəsində əsas xidmətlərin keyfiyyətinin yüksəldilməsi, ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühitin davamlı idarə olunmasının təmin edilməsi ilə bağlı davamlı tədbirlərin həyata keçirilməsi də daxildir.

Hazırda qeyri-neft sektoru üzrə ÜDM-in orta illik real artım tempi 10%-i ötüb, son 7 ildə adambaşına düşən milli gəlir 2 dəfədən çox artaraq 10 min dollara çatıb, yaxın 2-3 ildə bu rəqəmin 12-13 min dollar təşkil edəcəyi proqnozlaşdırılır. Ə.Muradovun fikrincə, bu amillər yoxsulluğun azaldılmasına öz təsirini ciddi şəkildə göstərir və göstərəcəkdir. Ümumiyyətlə, hazırda Azərbaycanda yoxsulluğun səviyyəsi 6% təşkil edir ki, bu da dünya üzrə göstəricidən 3-4 dəfə aşağıdır. Dünyada yoxsulluğun orta səviyyəsi isə 21% təşkil edir. 2015-ci ilin sonunadək respublikamızda yoxsulluq səviyyəsinin 3-4 faiz həddinədək azaldılması proqnozlaşdırılır. Bununla yanaşı, əsas hədəf insan inkişafı indeksi üzrə ən yüksək göstəricilərə çatmaqdan ibarətdir.

Yoxsulluğun azaldılması ilə bağlı strategiyanın əsas hədəflərindən biri də Ermənistanın təcavüzkar siyasəti nəticəsində öz doğma yurdlarını tərk etmiş 1 milyona yaxın qaçqın və məcburi köçkünün sosial həyat şəraitinin yaxşılaşdırılması və onların məşğulluğunun təmin olunması üçün tədbirlərin sistemli şəkildə davam etdirilməsidir. Bu insanların yaşadığı ərazilərdə infrastrukturun bütün növləri üzrə təminatın yaxşılaşdırılması ilə bərabər, iqtisadi inkişaf layihələrinin həyata keçirilməsi, qaçqın və məcburi köçkünlərin sahibkarlıq və biznes fəaliyyəti ilə məşğul olmaları üçün davamlı tədbirlərin görülməsi, eyni zamanda onların yeni iş yerləri ilə təmin edilməsi məqsədi ilə yaradılan müəssisələrin sayının artırılması nəzərdə tutulur. 2015-ci ilə qədər qaçqın və məcburi köçkünlərin məşğulluq səviyyəsinin ölkə üzrə orta məşğulluq səviyyəsinə çatdırılması nəzərdə tutulur.

**Elbrus CƏFƏRLİ**

# Sadələşdirilmiş vergi bəyannaməsi

## Hüquqi şəxslər üzrə 1№-li Əlavənin tərtib olunmasında mühasibat uçotu məlumatlarının düzgün yerləşdirilməsi

Qulu Soltanov,
sərbəst auditor

Hörmətli oxucular, qəzetin əvvəlki saylarında sadələşdirilmiş vergi bəyannaməsinin hüquqi şəxslər üzrə 1№-li Əlavəsinin tərtib olunmasında mühasibat uçotu məlumatlarının düzgün yerləşdirilməsi barədə izahlı açıqlamalar verilmiş və Əlavənin ayrı-ayrılıqda hər bir sətrinin doldurulması ilə nəticələnən ikili mühasibat yazılışları göstərilmişdir. Bu dəfə isə sadələşdirilmiş vergi ödəyicisi olan hüquqi şəxsdə ən çox baş verən təsərrüfat əməliyyatlarını nəzərə almaqla Əlavənin tam tərtib olunmasına dair açıqlamalara diqqət yetirək.

*Misal.* Sadələşdirilmiş vergi ödəyicisi olan hüquqi şəxsdə il ərzində baş verən təsərrüfat əməliyyatları üzrə illik yekunlaşmış ikili mühasibat yazılışları memorial order formasında aşağıdakı kimi olmuşdur (göstəricilər şərtidir):

| Əməliyyatın məzmunu | Debet | Kredit | Məbləğ |
|---|---|---|---|
| Alıcılardan satılmış mallara görə bank hesabına pul daxil olub | 51 | 62 | 6700 |
| Kassadan bank hesabına pul qoyulub | 51 | 50 | 3900 |
| Malsatanlara və xidmət göstərənlərə alınmış malların və qəbul edilmiş xidmətlərin dəyəri köçürülüb | 60 | 51 | 4500 |
| Dövlət büdcəsinə vergi köçürülüb | 68 | 51 | 750 |
| DSMF-yə sosial sığorta haqqı köçürülüb | 69 | 51 | 600 |
| Bank xidməti haqqı ödənilib | 60 | 51 | 100 |
| Bank hesabından kassaya nağd pul götürülüb | 50 | 51 | 1200 |
| Təsisçiyə dividend ödənilib | 75 | 51 | 900 |
| Uzunmüddətli bank krediti borcu ödənilib | 92 | 51 | 1500 |
| Alıcılardan kassaya satılmış mallara görə nağd pul daxil olub | 50 | 62 | 6500 |
| Alıcılardan kassaya nağd qaydada avans daxil olub | 50 | 64 | 1800 |
| Təhtəlhesab şəxsdən kassaya nağd pul daxil olub | 50 | 71 | 110 |
| İşçilərə əməkhaqqı verilib | 70 | 50 | 2050 |
| Malsatanlara nağd pul ödənilib | 60 | 50 | 2200 |
| Təhtəlhesab şəxsə pul verilib | 71 | 50 | 1550 |
| Dəftərxana ləvazimatlarının dəyəri ödənilib | 60 | 71 | 150 |
| Malsatanlara olan borc nağd ödənilib | 60 | 71 | 1300 |
| Dəftərxana ləvazimatları alınıb və silinib | 20 | 60 | 150 |
| Malsatanlardan materiallar alınıb | 10 | 60 | 8500 |
| Malsatanlardan azqiymətli əşyalar alınıb | 12 | 60 | 350 |
| Elektrik enerjisi satan təşkilatın təqdim etdiyi hesab üzrə elektrik sərfi | 20 | 60 | 200 |
| Bank xidməti xərci hesablanıb | 20 | 60 | 100 |
| İşçilərə əməkhaqqı hesablanıb | 20 | 70 | 2470 |
| Əməkhaqqından gəlir vergisi tutulub | 70 | 68 | 346 |
| Əməkhaqqından 3% sosial sığorta haqqı tutulub | 70 | 69 | 74 |
| DSMF-yə 22% sosial sığorta haqqı hesablanıb | 20 | 69 | 543 |
| İstehsalata material verilib | 20 | 10 | 7600 |
| Ehtiyat hissələr istifadə olunub | 20 | 10 | 180 |
| İstehsalat avadanlıqlarına amortizasiya hesablanıb | 20 | 02 | 1424 |
| Ümumi hasilat üzrə sadələşdirilmiş vergi hesablanıb (13200,00 x 4%) | 20 | 68 | 528 |
| İstehsal olunmuş 10 ədəd mebelin maya dəyəri (DB20-nin cəmi) | 40 | 20 | 13195 |
| Alıcılara 9 ədəd mebel satılıb (1500 manat x 9 ədəd) - satış dəyəri | 62 | 46 | 13500 |
| Satılmış 9 ədəd mebelin maya dəyəri (13195 man : 10 ədəd x 9 ədəd) | 46 | 40 | 11876 |
| Hesablanmış balans mənfəəti (13500 - 11876) | 46 | 80 | 1624 |
| Təsisçiyə dividend hesablanıb | 80 | 75 | 1000 |
| Dividenddən ödəmə mənbəyində 10% vergi tutulub (1000 x 10%) | 75 | 68 | 100 |
| YEKUN | | | 99570 |

## vergi təqvimi

| İYUL | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 |
| 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 |
| 29 | 30 | 31 | | | | |

**Qeyd:** Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.

**Ödənilən vergi:**

15 iyul - «(1)» və «(2)».
22 iyul - «(1-1)», «3», «4», «8», «9», «10.1», «10.2», «10.3» və «11».

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

*Birinci metod:* Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

*İkinci metod:* Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir.

Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)»- Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir. Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi**: Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı, hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, sərbəst auditor

## Audit

# Hüquqi şəxsin yenidən təşkil edilməsinin auditi

***Əvvəli ötən sayımızda***

*Çevrilmə yolu ilə yenidən təşkilin auditi.*

Çevrilmə - eyni anda (vahid qərar əsasında) hüquqi şəxsin fəaliyyətinə xitam verilməsi və təşkilati-hüquqi formasını dəyişərək yeni hüquqi şəxslə əvəz olunmasıdır. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 56.5-ci maddəsinə görə, bir növdən olan hüquqi şəxs digər növdən olan hüquqi şəxsə çevrildikdə yenidən təşkil edilmiş hüquqi şəxsin hüquq və vəzifələri təhvil aktına uyğun olaraq yeni yaranmış hüquqi şəxsə keçir. Bu zaman yeni yaranmış hüquqi şəxs əvvəlki, həmçinin yeni fəaliyyətlə məşğul olmağa davam edə bilər.

Başqa cür desək, hüquqi şəxsin çevrilməsi çoxmərhələli proses olaraq əvvəlki hüquqi şəxsin ləğvi və onun əmlak bazasında yeni hüquqi şəxsin yaradılması kimi başa düşülməlidir. Hüquqi şəxsin iştirakçıları (səhmdarları, təsisçiləri) ümumi yığıncaqda çevrilmə haqqında qərar verərkən eyni zamanda həmin hüquqi şəxsin ləğvi haqqında qərar vermiş olurlar. Qərarlar Azərbaycan Respublikası Mülki Məcəlləsinin müvafiq müddəalarına uyğun olaraq verilməlidir. Məsələn, səhmdar cəmiyyətinin ümumi yığıncağında bu cəmiyyətin məhdud məsuliyyətli cəmiyyətə çevrilməsi haqqında qərar Mülki Məcəllənin 106-1.3, 107-2.1 və 107-5.1-ci maddələrinin tələblərinə riayət olunmaqla qəbul edilməlidir.

Çevrilmə zamanı iştirakçı (payçı, səhmdar, təsisçi) əvvəlki hüquqi şəxsin nizamnamə kapitalında olan payının balans dəyərinə mütənasib şəkildə yeni təşkil olunan hüquqi şəxsdə də şəriklik payına sahib olur. Məsələn, səhmdar cəmiyyətinin məhdud məsuliyyətli cəmiyyətə çevrilməsi zamanı səhm və məhdud məsuliyyətli cəmiyyətdə pay hüququ eyni məzmun kəsb edir, yəni hər ikisi təsərrüfat cəmiyyətinin nizamnamə kapitalında pay hüququ olmaqla sahibinə cəmiyyətdə eyni hüquqlar (gəlir götürmək, idarəetmədə iştirak etmək) verir.

Çevrilmə zamanı çevrilən hüquqi şəxsin çevrilmə anına (çevrilmə barədə qərarın verildiyi tarixə və ya qərarda göstərilən tarixə) mühasibat balansı (maliyyə hesabatları) tərtib olunmalıdır. Çevrilən hüquqi şəxsin çevrilmə anına hazırlanan maliyyə hesabatlarının bütün maddələrindəki (hesablarındakı) göstəriciləri inventarizasiya olunmalı və nəticədə çevrilən hüquqi şəxsdən yeni yaradılan hüquqi şəxsə verilməli (keçməli) olan əmlakın, kapitalın və öhdəliklərin miqdarı müəyyənləşdirilir. Sonra isə çevrilən hüquqi şəxsin əmlakının, kapitalının və öhdəliklərinin (hüquq və vəzifələrinin) yeni hüquqi şəxsə verilməsi (keçməsi) üçün təhvil aktı tərtib olunur. Təhvil aktı çevrilən hüquqi şəxsin maliyyə hesabatı əsasında tərtib edilir.

Təhvil aktında aşağıdakılar əks olunur:

- çevrilən hüquqi şəxsin bütün kreditorlar və debitor borclular barəsində, o cümlədən tərəflərin mübahisəli öhdəlikləri üzrə hüquqi varislik haqqında müddəa və məlumatlar;
- çevrilən hüquqi şəxsin balans hesablarında əks olunan və təhvil veriləcək əsas vəsaitlərə, azqiymətli və tezköhnələn əşyalara, qeyri-maddi aktivlərə və digər növ (xammal və material, hazır məhsul, bitməmiş istehsal) qiymətlilərə aid edilən əmlakın siyahısı.

Təhvil aktında və ya ona əlavələrdə çevrilərək fəaliyyətinə xitam verilən hüquqi şəxsin hüquq və vəzifələri, onların kreditor və debitor borcları ilə bağlı məsələlərinin yeni (başqa təşkilati hüquqi formada) yaradılan hüquqi şəxsə keçməsi qaydaları da tam müəyyənləşdirilməlidir.

Yeni yaradılan hüquqi şəxsin nizamnaməsi və təhvil aktları təsisçilər və ya nizamnamə ilə vəkil edilmiş orqanlar tərəfindən təsdiq edilərək digər aidiyyəti hüquqi sənədlərlə (fəaliyyətinə xitam verilən (çevrilən) hüquqi şəxsin hüquqi sənədləri, möhürü, ümumi yığıncağın protokolu və s.) birlikdə qeydiyyat üçün müvafiq icra hakimiyyəti orqanına göndərilir. Çevrilən hüquqi şəxs yeni yaradılan hüquqi şəxsin dövlət qeydiyyatına alındığı andan yenidən təşkil olunmuş hesab edilir və çevrilən hüquqi şəxsin fəaliyyətinə xitam verilir.

Çevrilən hüquq şəxsin təhvil aktındakı müvafiq göstəriciləri əsasında yeni yaradılan hüquqi şəxsin ilkin maliyyə hesabatları hazırlanır. Beləliklə, çevrilən hüquqi şəxsin dövlət qeydiyyatı ləğv olunur və onun bazasında yeni hüquqi şəxs dövlət qeydiyyatına alınır.

**Davamı növbəti sayımızda**

# Azərbaycan İKT sahəsində yüksək nailiyyətlər əldə etmişdir

*Son illərdə informasiya-kommunikasiya texnologiyaları (İKT) sahəsində yüksək nailiyyətlər əldə edən Azərbaycan «Azerspace-1» telekommunikasiya peykinin orbitə çıxarılması ilə bu sahədə mühüm imkanlara malik olan ölkələrdən birinə çevrilmişdir.*

Bu sözləri BMT baş katibinin qlobal tərəfdaşlıq məsələləri üzrə xüsusi nümayəndəsi və Qlobal Tərəfdaşlıq Forumunun rəhbəri Amir Dossal Azərbaycana səfəri çərçivəsində «Azərkosmos» ASC-də keçirilən görüşdə demişdir.

A.Dossal bildirmişdir ki, Azərbaycanın bu uğuru və həyata keçirdiyi layihələr digər ölkələr üçün yaxşı model ola bilər. «Azərkosmos»un binası yüksək standartlara cavab verən parametrlər əsasında inşa olunur. Ölkənin kadr potensialı genişlənmişdir. Bu mərkəzdə çalışanların əksəriyyəti yerli kadrlardır.

## vergi cinayətləri

# Qeyri-qanuni yolla varlanmaq istədi, həbsə düşdü...

Biznes çətin və məsuliyyətli, həm də şərəfli peşədir. Bizneslə məşğul olan sahibkar çəkdiyi zəhmət bahasına əldə etdiyi qazancın halallığından qürur duyur, gəliri az olsa belə, təmiz və şəffaf işindən zövq alır. Amma az bir zamanda «qaz vurub, qazan doldurmaq» iştahası ilə bu işə baş qoşanların əməlləri çox uzağa getmir. Onlar azdan da olurlar. Tikinti materiallarının alqı-satqısı ilə məşğul olan «Təchizat Servis» MMC-nin rəhbəri Şamil Əliyev kimi...

Sumqayıt şəhərində yaşayan Şamil Əliyevin məqsədi dövlətdən vergini gizlədib asan yolla varlanmaq idi. O, MMC-nin mühasibat sənədlərinə gəlirlər və xərclər barədə bilə-bilə təhrif olunmuş məlumatları daxil edərək 732.342,25 manat məbləğində vergini dövlət büdcəsinə ödəməkdən yayınıb. MMC üzrə yayındırılmış verginin ümumi məbləği isə 1.504.903,72 manat təşkil edib.

«Təchizat Servis» MMC əvvəlcə Nemət Hüseynov adlı şəxsin olub. O, təsis etdiyi müəssisəni işlədə bilmədiyindən 2007-ci ildə 2000 manata Şamil Əliyevə satıb və alqı-satqı aparılan vaxt müəssisənin heç bir vergi borcu olmayıb.

Müəssisənin rəsmi təsisçisi və direktoru olan Ş.Əliyev ucuz qiymətə sahib olduğu müəssisəni asan qazanc mənbəyinə çevirmək üçün çox gözləməyib, saxta sənədlər əsasında əməliyyatlar aparmağa başlayıb. Müəssisənin mühasibi olmayıb, amma Ş.Əliyev mühasibat işlərini bilən müxtəlif şəxslərin köməyi ilə saxta hesabatlar hazırlayıb. Ölkənin 10-dan artıq kommersiya bankının bir neçə filialında öz adına hesablaşma hesabları açıb. Müəssisədə ondan başqa işçi olmadığından və bütün işlərə özü rəhbərlik etdiyindən banklardakı hesablar üzrə bütün əməliyyatları da özü aparıb.

Vergi orqanlarının «Təchizat Servis» MMC-də 2007-ci ilin avqust ayından 2010-cu ilin avqustunadək olan dövr üzrə səyyar vergi yoxlaması keçirməsi Ş.Əliyevin biznes fırıldaqlarını üzə çıxarıb. Sahibkar əvvəlcə səyyar vergi yoxlamalarının nəticələri ilə razılaşmaq istəməsə də, sonradan istintaq zamanı müəyyən edilmiş materialların, sübut və sənədlərin, eləcə də iş üzrə şahid qismində dindirilmiş şəxslərin ifadələri və təqdim etdikləri sənədlərin qarşısında «boyun əyməli olub», «Təchizat Servis» MMC tərəfindən həyata keçirilmiş saxta əməliyyatları və törətdiyi bütün əməlləri etiraf edib. Beləliklə, Şamil Əliyev barəsində Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən təqdim edilmiş materiallar əsasında CM-in 213.2.2-ci maddələri ilə cinayət işi açılıb və barəsində Yasamal Rayon Məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Təqsirləndirilən şəxs qismində dindirilən sahibkar ona qarşı irəli sürülmüş ittihamın mahiyyəti üzrə özünü təqsirli bilərək, müəssisənin dövlətə olan vergi borclarını ödəmədiyini etiraf etməli olub. Məhkəmənin qərarı ilə Ş.Əliyev 5 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum olunub.

**ELBRUS**

beynəlxalq panoram

# «Qeyri-rezidentlərin vergiyə cəlb edilməsi» mövzusunda seminar

*İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) və Macarıstan Respublikasının Milli İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə Budapest şəhərində seminar keçirilmişdir.*

Seminarda OECD Katibliyinin eksperti xanım Susan Himes tərəfindən təqdimat edilmiş, beynəlxalq vergitutma qaydaları haqqında ümumi məlumat verilmiş, ödəmə mənbəyində tutulan vergilər, daimi nümayəndəlik anlayışı, daimi nümayəndəliyə aid olan gəlirlər, müstəqil fərdi xidmətlərin (muzdlu işin) vergiyə cəlb edilməsi, sazişlərin inzibatçılığı ilə əlaqədar digər məsələlərə toxunulmuşdur.

Tədbirdə model layihə üzrə «daimi nümayəndəliyin» praktiki tətbiqi, eləcə də daimi nümayəndəliyin müəyyən edilməsi ilə bağlı mövcud problemlər müzakirə edilmişdir.

Azərbaycanı seminarda Vergilər Nazirliyi yanında Xüsusi Rejimli Vergi Xidməti Departamentinin Bank, sığorta və digər maliyyə qurumlarının auditi şöbəsinin böyük dövlət vergi müfəttişi, 2-ci dərəcəli müfəttiş Səfərəli Cavadov təmsil etmişdir. O, təqdimatında Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulan qeyri-rezidentlərin vergitutma obyektləri, vergi dərəcələri, rezidentlik və qeyri-rezidentlik, daimi nümayəndəlik anlayışları barədə məlumatlar vermişdir.

Təqdimatda hazırda dünyada gedən «bank məxfiliyinin» aradan qaldırılması siyasətinə uyğun olaraq ölkəmizin Vergi Məcəlləsinin 76-cı maddəsində edilmiş dəyişikliklər də iştirakçıların nəzərinə çatdırılmışdır.

# Avropa Birliyi vergidənyayınmaya qarşı mübarizəni gücləndirir

*Avropa Birliyinin iqtisadi və maliyyə məsələləri üzrə Şurası vergidən yayınma halları və vergi dələduzluqları ilə mübarizə sahəsində yekun razılaşmaları qəbul edib. Şura təsdiq edib ki, «bütün üzv dövlətlər vergidən yayınma halları və vergi dələduzluqları ilə mübarizə üçün səmərəli addımların atılmasının əhəmiyyətini qəbul edir və ədalətsiz vergi planlaşdırmasına qarşı əks tədbirlərin görülməsinin vacibliyini qeyd edirlər».*

Şura dövlətlərin milli və dövlətlərarası səviyyədə, ikitərəfli və ya çoxtərəfli əsaslarda, həmçinin Avropa Birliyi, G8, G20 və İƏİT çərçivəsində vergi informasiyalarının avtomatik mübadiləsinin tətbiqinə yönəli təşəbbüslərini dəstəkləyir.

Şura ABŞ və Böyük Britaniya, Almaniya, İspaniya, İtaliya, Fransa, həmçinin Britaniya Krallığına daxil olan ərazi və adalar arasında məlumatların avtomatik mübadiləsi üzrə pilot layihənin nəticələrinə xüsusi diqqət yetirir. Bu layihə «Vergi məqsədləri üçün xarici hesablar üzrə məlumatların məcburi təqdim olunması haqqında» və ya FATCA adlanan məşhur Aktın formatına uyğun tətbiq edilir.

Şura G20 və İƏİT çərçivəsində vergi bazasının azaldılmasının (birbaşa korporativ vergilər üzrə) və transsərhəd imkanlarından sui-istifadə edərək mənfəətin digər yurisdiksiyalara (aşağı dərəcəli və vergisiz yurisdiksiyalara) daşınmasının qarşısının alınması üçün beynəlxalq standartların hazırlanmasını bəyənir.

Şura Avropa İttifaqının bütün üzv dövlətlərini vergidən yayınma hallarına qarşı əks-tədbirlərə dair ümumi qaydaları (a General Anti Avoidance Rule - GAAR) öz milli qanunvericiliklərinə daxil etməyə çağırıb. Böyük Britaniya artıq müvafiq düzəlişləri qəbul edib.

Şuranın üçüncü ölkələr haqqında tövsiyəsi isə xüsusilə diqqət çəkir. Belə ölkələrə Rusiya, Ukrayna, Qazaxıstan və MDB-nin digər dövlətləri aiddir. Şura tövsiyə edib ki, üçüncü ölkələrə münasibətdə onlarda vergitutma sahəsində ədalətli tənzimləmə prinsiplərinin (şəffaflıq, informasiya mübadiləsi və ədalətli vergi rəqabəti) irəliləməsinə kömək edilsin.

Bu təklif çərçivəsində İƏİT-in təcrübəsindən istifadə edilməsi nəzərdə tutulur. Belə ki, İƏİT bu sahədə onunla əməkdaşlıq etməyən yurisdiksiyaların siyahısını hazırlayır və bunun əsasında əməkdaşlıqdan imtina edən üçüncü ölkələr barədə «qara siyahı» tərtib olunur.

Şura qeyd edib ki, göstərilən işlər ədalətsiz vergi rəqabətinin vurduğu zərərlərin izlənilməsi ilə məşğul olan AB-nin xüsusi Ekspertlər Qrupunun işi ilə pararlel aparılmalıdır.

# Estoniyaya avtomobillərə vergi tətbiq etmək tövsiyə edilib

*Avropa Komissiyası Estoniya hökuməti üçün tövsiyələr paketini açıqlayıb. Sənəddə növbəti dəfə avtomobillərə vergi tətbiq etmək tövsiyə olunur.*



Əvvəllər Estoniya hökuməti bir neçə dəfə bu tövsiyələri qəbul etməyəcəyini bəyan etmişdi. Maliyyə naziri Yurgen Liq bildirmişdi ki, istehlaka və ətraf mühitin çirklənməsinə görə vergilərin tətbiqi daha məqsədəuyğundur və minik maşını sahiblərini sıxışdırmaq lazım deyil. «Biz artıq çoxdan yanacağa kifayət qədər yüksək aksiz tətbiq edirik, buna görə də minik maşını sahiblərini sıxışdırmaq istəmirik. Bu, regionlar üçün də çətinlik yaradar, çünki bir çox yerlərdə avtomobil hərəkət üçün yeganə vasitədir», - deyə Y.Liq bildirmişdir.

# «Səkkizlik» vergi bəyannaməsini açıqladı

## G8 ölkələrinin qərarı ilə işgüzar aləm ümumdünya şəffaflıq standartını qəbul etməlidir

*«Böyük səkkizlik» bu yaxınlarda İrlandiyada başa çatdırdığı sammitində maliyyə şəffaflığı barədə, eləcə də güzəşt yurisdiksiyalarının və uçota alınmayan gəlirlərin tam aradan qaldırılması məqsədilə vergilərin mənbəyində ödənilməsi ilə bağlı siyasi bəyannamə qəbul edib. OECD (İqtisadi Əməkdaşlıq Təşkilatı) isə offşor zonalar əleyhinə gündəliyini açıqlamağa ləngiməyib. Qərara əsasən, informasiyaların ABŞ standartı əsasında avtomatik rejimdə açıqlanması üzrə milli qanunvericiliklərin optimallaşdırılmasını - şirkətlərin qeydiyyata alınmasının vahid standartını qəbul etmək, eləcə də yerli tənzimləyici orqanlara şirkətlərin sahibləri və şirktələrdən faydalananlar barədə hesabatların keyfiyyətinə nəzarət etmək təklif olunur.*

Britaniya hökuməti tərəfindən açıqlanmış bəyannamənin on prinsipindən yeddisi vergi-

«gəlirlərin gizlədilməsinə şərait yaradan» təmsilçi səhmləri (bearer shares), eləcə də nominal sahiblər və nominal direktorların səhmləri kənarlaşdırılacaq.

Bütün dünya üzrə şirkətlərin maliyyə əməliyyatlarına nəzarətin asanlaşdırılmasını «vahid mərkəzi qeydiyyatçıların» köməyi ilə həyata keçirmək təklif olunur. Həmin qeydiyyatçıların məlumat bazalarında müxtəlif yurisdiksiyalardan hüquqi şəxslərin benefisiarları və mülkiyyətçiləri barədə bütün məlumatlar toplana bilər ki, bununla vasitəçilər zəncirini aşkar etmək asanlaşar. G8 və OECD-nin bu təklifindən əvvəl ABŞ vergi orqanlarının FATCA (Foreign Account Tax Compliance Act) çərçivəsində istifadə etdikləri GIIN (Global Intermediary Identification Number), eləcə də bazar iştirakçısının vahid müəyyənləşdiricisi LEI (Legal Entity Identifier) var idi. LEİ-nin faktiki işə salınması yaxın vaxtlara gözlənilmir, sistemin yaradılmasın-



dənyayınmaya qarşı mübarizəni əks etdirir. «Səkkizlik»in çağırışları arasında vergilərin mənbəyində tutulması vurğulanır (burada xammal hasil edən ölkələrə xüsusi diqqət yetirilir). Bunun üçün korporasiyaların gəlir əldə etdikləri ölkələr üzrə ayrıca vergi tutulması, eləcə də gəlirlərin offşorlara axmasının qarşısını almaq üçün vəsaitlərin daxili axınlarına nəzarət etmək tələb olunur. Rusiya Prezidenti Vladimir Putin də «offşorlarla mübarizə aparmaq üçün milli plan hazırlanması» niyyətinin olduğunu bildirib.

G8-in təklifinə əsasən, şirkətlər faydalananlar (benefisiarlar) barədə konkret informasiya təqdim etmək barədə öhdəlik götürməli, tənzimləyicilər isə monitorinq aparmalı və yeri gəldikdə sanksiya tətbiq edə bilməlidirlər. Bu, müxtəlif təmsilçi şirkətlərə də aiddir, onlar bundan sonra tənzimləyici orqanlara faktiki gəlir götürənlər və təsisçilər barədə hesabat verməlidirlər (hazırda offşorların əksəriyyətində təfərrüatlı hesabat tələb olunmur). OECD-nin təklifi ilə maliyyə tənzimləyiciləri və məlumatların avtomatik mübadiləsi diqqəti fiziki şəxslərin dividendlərinə və faiz gəlirlərinə yönəltməklə kifayətlənməməlidir (məsələn, hazırda Avropa Birliyində bu baş verir), həm də aktivlərin təkcə gəlirlərini deyil, özlərini də «gizləməyə» imkan yaradan birgünlük firmalar, trastlar və digər strukturlar nəzarətdə saxlanılmalıdır. Uzunmüddətli gələcəkdə maliyyə dövriyyəsindən

da müxtəlif ölkələrdən 45 tənzimləyici iştirak edir. GIIN-in ilk siyahısının isə 2013-cü ilin dekabrında ortaya qoyulacağı nəzərdə tutulur. Axırıncı tədbir ABŞ-ın vergi orqanları ilə vergilərə dair məlumatları paylaşmağa hazır olan yerli şirkətlərə və kontragentlərə aid olacaq. İndi ABŞ avtomatik informasiya mübadiləsinə dair 75 ölkə ilə danışıqlar aparır.

OECD ekspertləri qeyd edirlər ki, məlumat mübadiləsinin vahid sisteminin idarə edilməsi xərclər baxımından milli səviyyələrdə aparılan təhqiqatlardan daha səmərəlidir. Bu ilin aprel ayında Fransa, Almaniya, İtaliya, İspaniya və Böyük Britaniya FATKA standartını yalnız ABŞ-la əlaqədar deyil, həm də öz aralarında tətbiq etmək barədə razılığa gəlmişdilər. Böyük Britaniyanın asılı ərazilərlə son razılaşması da Avropa Birliyi ölkələri ilə avtomatik məlumat mübadiləsini nəzərdə tutur: AB-də artıq bu ilin sonuna qədər gəlirlərin mənbələrinə dair bütün məlumatların mübadiləsi təmin edilə bilər. Beynəlxalq standart kimi OECD-nin vergi ödəyiciləri barədə məlumatların açıqlanması konvensiyasını (Multilateral Convention on Mutual Administrative Assistance in Tax Matters) qəbul etmək təklif olunur. OECD-nin nəzərdə tutduğuna görə, milli qanunverciliklərin «səkkizlik» ölkələrinin vergi ödəyiciləri barədə məlumat mübadiləsinin vahid standartına uyğunlaşdırılması 2013-cü ilin sonuna gözlənilir.

krossvord



**Yuxarıdan aşağı:** 1.Xürrəmilər hərəkatının rəhbəri, Ərəb Xilafətinə qarşı Azərbaycandakı üsyana rəhbərlik etmiş böyük sərkərdə; 2.Azərbaycanın satirik şairi (1784-1857); 3.Qadın adı; 4.Dünya şöhrətli bəstəkar, görkəmli musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim, müasir Azərbaycan peşəkar musiqi sənətinin və milli operasının banisi; 5.İslam dinində siyasi və hüquqi idarə üsulu; 6.Nəfəsli musiqi aləti. Simfonik orkestrin tərkibinə daxil olan əsas alətlərdən biri; 9.Bir çox ölkələrdə xüsusi xidmətlərə görə rəsmi surətdə verilən fərqlənmə nişanı; 11.Bir ölkənin sərhədləri çərçivəsində müəyyən müddət ərzində ixrac, daxili istifadə və ehtiyat üçün istehsal olunan son məhsulların və xidmətlərin toplam dəyəri *(abbreviatura)*; 13.Simli musiqi aləti; 14.XIV-XV əsrlərdə astronomik hesablamaları əhatə edən təqvim cədvəllərinə verilən ad. Sonrakı dövrlərdə müxtəlif bədii və elmi əsərləri əhatə edən məcmuələrə də bu ad verilmişdi; 15.Təsərrüfat subyektlərində müqavilə əsasında maliyyə-təsərrüfat fəaliyyəti sahəsində yoxlama, ekspertiza, təhlil, mühasibat uçotu aparan şəxs; 17.Böyük zaman ölçüsü; 18.Ftorun digər elementlərlə kimyəvi birləşməsi; 21.Ötən əsrin 60-cı illərində yaranan rəqs; 22.Bitki növü; 23.Rusiyanın futbol klubu.

**Soldan sağa:** 1.Azərbaycan Respublikasının ən hündür nöqtəsi, hündürlüyü 4466 metrdir; 5.Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunda kənd; 7.Britaniya monarxlarının (hazırda II Yelizavetanın) rəsmi London iqamətgahı *(sarayı)*; 8.Gülçiçəklilər fəsiləsindən bitki cinsi; 10.Yaxın Şərqdə xalq. Türkiyə, İraq, İran, Suriya ərazisində kompakt halda yaşayırlar; 12.Səs dalğalarını elektrik siqnalına çevirən elektroakustik cihaz; 14.Cənubi Amerikada çay; 16.Yeddi musiqiçidən ibarət ansambl; 19.Musiqidə temp; 20.Mərhələ *(rusca)*; 24.Ən mühüm ünsiyyət vasitəsi olan dilin şifahi və yazılı təzahür forması; 25.Sığorta müqaviləsində sığortaçının müəyyən edilmiş həddən kənara çıxan itkilərdən azad edilməsini nəzərdə tutan şərt; 26.Vokal musiqinin kollektiv ifası; 27.1992-ci ildən Olimpiya idman növünə daxil edilən oyun, tennislə bənzər xüsusiyyətləri var.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Bəsrə; 2.Kolli; 3.Xama; 4.Nabran; 5.Epiqraf; 6.İrarsit; 9.Adorf; 11.Yen; 13.Elçin *(Həmidov)*; 14.Əştərək; 15.Zaraysk; 17.Aki; 18.Kekule *(Fridrix Avqust)*; 21.Rondo; 22.Zavod; 23.ATƏT.

**Soldan sağa:** 1.Bakıxanov *(Abbasqulu ağa)*; 5.Eri; 7.Səlimoba; 8.Mina; 10.Əyin; 12.Banderas *(Antonio)*; 14.Ənzəli; 16.Ərəfat; 19.Turniket; 20.Priz; 24.Röya; 25.Sultanov *(Xosrov bəy)*; 26.Kok; 27.Skeytbord.

*idman*

# Güləş üzrə gənclərin Avropa birinciliyi başlandı

*Dünən Makedoniyanın Skopye şəhərində gənclər arasında güləş üzrə Avropa çempionatına start verilib. Azərbaycan Güləş Federasiyasından bildiriblər ki, proqrama əsasən iyulun 2-3-də yunan-Roma, 4-5-də gənc qızlar, 6-7-də isə sərbəst güləş yarışları keçiriləcək.*



Yunan-Roma güləşi üzrə yarışlarda ölkəmizi böyük məşqçi Şaban Donat və məşqçi Akif Əliyevin rəhbərliyi altında Ramiz Məmmədov (50 kq), Sakit Quliyev (55 kq), Elman Muxtarov (60 kq), Ruhin Mikayılov (66 kq), Hacımurad Bağmanov (74 kq), Orxan Nuriyev (84 kq), Əli Həsənov (96 kq) və Abbas Abdullayev (120 kq) təmsil edirlər. Avropa çempionatında iştirak edəcək gənc qızlar böyük məşqçi Arif Fərmanov və məşqçi Həsrət Məmmədyarovun rəhbərliyi altında Makedoniyaya yollanıb. Heyətdə Sahilə Ələkbərova (44 kq), Kəmalə Əliyeva (48 kq), Patimat Baqomedova (51 kq), Yarina Dubovska (55 kq), Alyona Kolesnik (59 kq), Darya Korin (63 kq), Raqnetta Qurbanzadə (67 kq) və Səbirə Əliyeva (72 kq) yer almışlar.

Sərbəst güləş üzrə gənclərdən ibarət yığma komanda böyük məşqçi Arif Abdullayev və məşqçi Rövşən Umudovun rəhbərliyi altında çempionatda iştirak edir. Heyətdə Ruslan Qasımov (50 kq), Ruslan Surxayev (55 kq), Əhmədnəbi Qvarzatilov (60 kq), Hacımurad Ömərov (66 kq), Bəxtiyar İsrafilli (74 kq), Orxan Şərifov (84 kq), Səid Həmidov (96 kq) və Ali Maqomedabirov yer alıblar.

# Azərbaycan yığmasının dünya çempionatında debütü

6-14 iyul 2013-cü il tarixlərində Finlandiyada (Vuokatti) səmti müəyyənetmə idman növü üzrə dünya çempionatı keçiriləcək. Dünyanın 74 ölkəsinin yığma komandalarının qatılacağı çempionatda iştirak etmək üçün müstəqillik tariximizdə ilk dəfə olaraq Azərbaycan Beynəlxalq Səmti Müəyyənetmə Federasiyası tərəfindən rəsmi dəvət almışdır.

Artıq milli komandamız Finlandiyaya yola düşmüşdür. Azərbaycanı bu mötəbər yarışda 4 idmançı təmsil edəcəkdir. Çempionat ərzində xəritə üzrə verilmiş istiqamətdə uzun və orta məsafələrdə qaçış, sprint və estafet yarışları keçiriləcəkdir.

# Şahmatçımız dünya çempionunu «mat» qoydu

İsveçrənin Cenevrə şəhərində keçirilən sürətli şahmat üzrə beynəlxalq turnir başa çatmışdır. Azərbaycan Şahmat Federasiyasından bildirmişlər ki, ümumilikdə 8 güclü şahmatçının - V.Kramnik (Rusiya), Y.Pelettier (İsveçrə), Y.Polqar (Macarıstan), H.Nakamura (ABŞ), A.Kostenyuk (Rusiya), R.Eduard və E.Bakronun (Fransa) mübarizə apardığı turnirdə ölkəmizi beynəlxalq dərəcəli qrossmeyster Şəhriyar Məmmədyarov təmsil etmişdir.

Ş.Məmmədyarov finalda dünya çempionu Vladimir Kramniklə (Rusiya) üz-üzə gəlmişdir. Güclü rəqibini 1.5:0.5 hesabı ilə məğlub edən Ş.Məmmədyarov turnirin qalibi adını qazanmışdır. Qeyd edək ki, turnir hər qrupda 4 nəfər olmaqla 2 yarımqrupda keçirilmişdir.

BRASIL 2013 FIFA CONFEDERATIONS CUP

# Braziliya ispanlara futbol dərsi keçdi

*Braziliyada keçirilən Konfederasiyalar Kubokuna yekun vurulub. Sayca 9-cu dəfə reallaşan yarışın son günündə azarkeşlər 2 oyuna şahidlik ediblər.*

3-cü yer uğrunda görüşdə Cənubi Amerika çempionu Uruqvay milli komandası ilə İtaliya yığması qarşılaşıblar. Matçın əsas hissəsində tərəflər hərəyə 2 dəfə fərqləniblər. Əlavə vaxtda isə qalib müəyyənləşmədiyindən penaltilərə ehtiyac duyulub. Burada isə baş məşqçi Çezare Prandellinin yetirmələri daha dəqiq oynayıb - 3:2.



Daha sonra məşhur «Marakana» stadionunda final oyunu keçirilib. Ev sahibi Braziliya ilə İspaniya turnirin qalibi adı uğrunda üz-üzə gəliblər.

3:0 hesabı ilə başa çatan maraqlı görüşdə meydan sahibləri son dünya və Avropa çempionlarını darmadağın ediblər. Matçda Fred dubla imza atıb. Digər qolu isə ispanların qapısından növbəti mövsümdə «Barselona»nın şərərəfini qoruyacaq Neymar keçirib.

Qeyd edək ki, Konfederasiyalar Kuboku ilk dəfə 1992-ci ildə Səudiyyə Ərəbistanında keçirilib. Kral Fəhd Kuboku adı altında baş tutan turniri ən çox Braziliya qazanıb - 4 dəfə (1997, 2005, 2009, 2013). 2 dəfə (2001, 2003) Fransa, hərəyə 1 dəfə isə Argentina (1992), Danimarka (1995) və Meksika (1999) qalib gəlib.

*mozaika*

# Qızmar günəş altında

sağlam hayat tarzi



Artıq yaydır və qarşıda bizi qızmar günlər gözləyir. Sağlamlığa diqqət yetirilməsi baxımından yayın da yay qayğıları olur. Qızmar günəş şüalarının səhhətimizə mənfi təsirinin qarşısını almaq və ya bu təsirləri azaltmaq üçün həkimlərin yeddi məsləhətini diqqətinizə təqdim edirik.

1. Həmişə yanınızda qazsız su olsun. Yaxşı olar ki, 1 litr suya bir limon sıxasınız. Limonun tərkibindəki C vitamini damarları möhkəmləndirir və spazmı aradan qaldırır.
2. Metroya, avtobusa minəndə mütləq özünüzlə yelpik götürün.
3. Günəş altında başıaçıq gəzmək olmaz. Baş örtüyü yaşından, cinsindən asılı olmayaraq, hamı üçün vacibdir.
4. Əgər kondisioner sistemi olmayan maşından istifadə edirsinizsə, maşına minməmişdən öncə bir neçə dəqiqə qapıları açıq qoyub salonu havalandırın.
5. Sintetik tərkibli geyimlərdən qaçın. Yayda pambıq, kətan və s. təbii materiallardan olan yüngül geyimlər geyinmək məsləhət görülür.
6. Qızarmış, yağlı yeməkləri yüngül meyvə, tərəvəz, salatla əvəz edin. Rahat yatmaq üçün yuxudan azı 2-3 saat əvvəl şam edin.
7. Axşamlar ayaqlarınızı vanna edin. Suya dəniz duzu və nanə çövhəri də tökmək olar. Bu, yorğunluğu götürür, qan dövranını normallaşdırır...

# Qripə qarşı yeni vaksin

elm

*Yaponiya Səhiyyə Nazirliyinin bir qrup alimi qripə qarşı plastır şəklində vaksinin işlənib hazırlandığını elan etmişdir.*

Bu barədə məlumatı «NHK» telekanalı (Yaponiya İctimai Televiziya və Radio Yayımları Şirkəti) yaymışdır.

Diametri təxminən bir santimetr olan dəyirmi formalı plastırın təxminən 250 mikroiynəsi vardır. İynələrin hər biri hialuron turşusundan və qrip əleyhinə vaksinin preslənmiş komponentindən ibarətdir.

Alimlərin sözlərinə görə, belə vaksinləşdirmə üsulu inyeksiya ilə müqayisədə tamamilə ağrısızdır, çünki mikroiynələrin uzunluğu 0,8 millimetrdən çox deyildir. İndiyədək kliniki tədqiqatlarda 20 adam iştirak etmişdir.

Tibb işçilərinin fikrincə, plastır şəklində vaksinin səmərəliliyi bütün dünyada tətbiq edilən inyeksiya şəklində adi vaksinlə müqayisə oluna bilər.

Pasiyentlərin təxminən yarısında plastırın yapışdırıldığı yerdə qızarma və dərinin yüngül şişməsi müşahidə olunmuşdur, lakin yeni vaksinin ciddi kənar təsirləri müəyyən edilməmişdir.

Tibb işçiləri ümid bəsləyirlər ki, vaksin-plastır əlavə kliniki sınaqlar keçirildikdən sonra yaxın 5-10 il ərzində tətbiq ediləcəkdir.

# Messinin vergi qalmaqalı

tam ciddi



«Barselona»nın hücumçusu Lionel Messi 2007, 2008 və 2009-cu illərdə vergidən yayınmaqda ittiham olunduğu üçün İspaniya Maliyyə Nazirliyinə 15 milyon avro ödəyərək, hakim qarşısına çıxmayacaq və iddiaları bağlayacaq. Apasport.az saytının məlumatına görə, argentinalı futbolçu sözügedən məbləği ödədikdən sonra sentyabrın 17-nə nəzərdə tutulan məhkəmədə iştirak etməyəcək. Bununla bağlı artıq futbolçunun vəkilləri ilə məhkəmə nümayəndələri artıq razılığa gəliblər. Qeyd edək ki, vergidən yayınmaqda ittiham olunan Messi bir neçə gün əvvəl İspaniyanın dövlət büdcəsinə 10 milyon avro vergi ödəmişdi...

# Balıq yağı qeyri-sağlam qidanın təsir dərəcəsini azaldır

*Liverpul Universitetinin xroniki xəstəliklər üzrə alimlər komandası bir sıra tədqiqatlar apararaq müəyyən etmişdir ki, omeqa-3 yağ turşuları nəinki çəkinin azalmasına kömək göstərir, həmçinin beyin hüceyrələrini qoruyur. Doymamış omeqa-3 yağ turşuları, yaxud balıq yağı beyni zərərli qidanın mənfi təsirindən qoruyur.*



Tədqiqatlar göstərir ki, yağla zəngin qida yeni sinir hüceyrələrinin əmələ gəlməsi prosesini pozur. Böyüklərdə neyrogenez beynin plastikliyi mexanizmlərindən biridir. Omeqa-3 turşuları ilə zəngin pəhriz beyin sahəsini stimullaşdırır, beləliklə, yaddaşı və təhsili yaxşılaşdırır.

Tədqiqatın əsas müəllifi doktor Lüsi Pikevens demişdir: «Doymuş yağlardan həddindən artıq istifadə çəkinin artmasına və zehni fəaliyyətin pozulmasına gətirib çıxarır. Balıq yağı neyrogenezə cüzi təsir göstərir, lakin şəkərin və yağın qida qəbuluna nəzarət sisteminə mane olmasına imkan vermir.

Omeqa-3 yağ turşularının cüzi qəbulu yaşlı insanlar üçün xüsusi əhəmiyyət kəsb edir. Tərkibində bu elementlərin olduğu qida əlavələri yaşlılarda zehni zəifliyin qarşısını almaq üçün əla profilaktikadır.

# Ölümə meydan oxudu

maraqlı

*Məşhur amerikalı kəndirbaz Nik Vallenda 450 metrdən artıq yüksəklikdə çəkilmiş, uzunluğu 430 metrə yaxın olan metal burazla Böyük Kanyonun (Qrand-Kanyon) üzərindən keçmişdir.*

Vallenda bu təhlükəli yola təxminən 23 dəqiqə vaxt sərf etmişdir. Ən maraqlısı budur ki, kəndirbaz özünü sığortalamaq üçün əlavə qurğudan istifadə etməmişdir. Vallenda bu tryukun icrasına təxminən 4 il hazırlaşmışdır. Məşqlərin final mərhələsi bir neçə həftə bundan əvvəl Florida ştatında başlamışdır. Orada uzunluğu 300 metr olan buraz nisbətən aşağı yüksəklikdə çəkilmişdir.

Məşq şəraitini real vəziyyətə yaxınlaşdırmaq üçün orada sürəti saatda 80 kilometrə çatan güclü süni külək yaradılmışdır.

Sirkdə kəndirbazlar sülaləsinin nümayəndəsi olan Vallenda kanat üzərində ilk addımlarını iki yaşında olarkən atmışdır. Vallendanın adı bir neçə dəfə Ginnesin Rekordlar Kitabına düşmüşdür. 2008-ci ildə o, təxminən 40 metr hündürlükdə çəkilmiş kanat boyunca 45 metr məsafəni velosipedlə qət etmişdir.

Keçən il Vallenda 50 metrdən artıq yüksəklikdə çəkilmiş buraz boyunca Niaqara şəlaləsinin üstündən keçmişdir.

**Müdriklər deyib ki...**

*«Həqiqət bir daş qədər sərt, bir qönçə qədər zərifdir».*

***Mahatma Qandi (1869-1948)***



# Asan Sertifikat Xidmətləri Mərkəzinin fəaliyyəti ilə bağlı nümunəvi sənəd formaları hazırlanıb

*«Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikasının Qanunu və Nazirlər Kabinetinin 2006-cı il 28 yanvar tarixli 27 nömrəli qərarı ilə təsdiq edilmiş «Sertifikat xidmətlərinin göstərilməsi, sertifikatın verilməsi və reyestrin aparılması Qaydaları»nda sertifikat xidmətlərinin göstərilməsi, sertifikatın verilməsi qaydaları, tərəflərin hüquq və vəzifələri, sertifikatın qüvvəsinin dayandırılması, bərpa edilməsi və ləğv edilməsi qaydaları ilə bağlı normalar nəzərdə tutulmuşdur.*




Bu tədbirlərə uyğun olaraq Vergilər Nazirliyi informasiya-kommunikasiya texnologiyalarının (İKT) tətbiqinin genişləndirilməsi, göstərilən elektron xidmətlərin təkmilləşdirilməsi, eləcə də «Asan İmza Sim-kartı» və «Rəqəmsal ID kartı» üzrə dövlət orqanlarına, hüquqi və fiziki şəxslərə sertifikat xidmətlərinin göstərilməsi məqsədilə Asan Sertifikat Xidmətləri Mərkəzini (ASXM) istifadəyə vermişdir.

Vergilər nazirinin 18 iyun 2013-cü il tarixli əmrinə əsasən, nazirin birinci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Natiq Əmirov ASXM-in fəaliyyəti ilə bağlı səlahiyyətli şəxs müəyyən edilmiş və ona bir sıra hüquqlar verilmişdir.

Artıq ASXM-in fəaliyyətinin həyata keçirilməsi ilə bağlı vergi orqanı əməkdaşlarının siyahısı təsdiq edilmişdir. Qarşıya qoyulan tələblərə əməl edilməsi, tərəflər arasında münasibətlərin düzgün tənzimlənməsi və ASXM tərəfindən sertifikat xidmətlərinin təkmil formada göstərilməsi üçün bir sıra sənədlərin nümunəvi formaları (ərizə, müqavilə, bildiriş, etibarnamə, yaddaş formaları) hazırlanmışdır. Həmin sənəd formaları xidməti istifadə üçün nazirliyin bütün struktur vahidlərinin və bölmələrinin rəhbərlərinə, müstəqil vəzifəli şəxslərinə göndərilmişdir.

Vergilər Nazirliyinin struktur vahidlərinə ASXM-in fəaliyyəti ilə bağlı tədbirlərin həyata keçirilməsinin təmin edilməsi üçün bir sıra tapşırıqlar verilmişdir. Vergi ödəyicilərinə xidmət idarəsinə elektron imza yaratma vasitələrinin əldə edilməsi ilə bağlı vergi ödəyicilərinin məlumatlandırılması, «195» Çağrı Mərkəzi vasitəsi ilə 24 saat ərzində istifadəçilərin suallarının cavablandırılması, xidməti məktuba əlavə edilən nümunəvi sənəd formalarının nazirliyin rəsmi internet saytında yerləşdirilməsinin təmin edilməsi tapşırılıb. Həmçinin, Maliyyə və təsərrüfat idarəsinə ASXM-in fəaliyyətinin həyata keçiriləcəyi yerlərdə hüquqi və fiziki şəxslər tərəfindən elektron imza yaratma vasitələrinin əldə edilməsi məqsədi ilə mobil operatorların nümayəndələri üçün lazımi şəraitin yaradılması və aidiyyəti vergi orqanlarının sertifikat blankları, zərflər və digər zəruri sənədlərlə təmin edilməsi, İnformasiya texnologiyaları və proqram təminatı şöbəsinə isə ASXM-in fəaliyyəti ilə bağlı zəruri texniki işlərin başa çatdırılması, təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi barədə tapşırıqlar verilib. Bunlarla yanaşı, İnternet Vergi İdarəsi vasitəsilə təqdim olunan elektron xidmətlərdən istifadə zamanı elektron imzanın tətbiqi üçün zəruri tədbirlərin görülməsi də nəzərdə tutulur. Nazirliyin Analitik-informasiya şöbəsinə isə nümunəvi sənəd formalarının mahiyyəti barədə məlumatların kütləvi informasiya vasitələrində işıqlandırılmasının təmin edilməsi tapşırılıb.

## Azərbaycan Respublikası Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi (ASXM) tərəfindən Asan İmza Sim-kart üzrə Sertifikat xidmətlərinin göstərilməsi haqqında Müqavilə №________

**1. Müqavilənin tərəfləri:**

Sertifikat xidmətlərinin göstərilməsi haqqında müqavilə (bundan sonra - Müqavilə) bir tərəfdən Azərbaycan Respublikasının Vergilər Nazirliyi (bundan sonra - Mərkəz) adından _______________ (vəzifəsi, adı, soyadı, atasının adı) və digər tərəfdən Asan İmza Sim-karta malik olan (və ya həmin şəxsin etibarnamə üzrə nümayəndəsi) ____________________(adı, soyadı, atasının adı) (bundan sonra İmza sahibi) arasında _______ tarixdə Bakı şəhərində bağlanmışdır. Bundan sonra qeyd edilən şəxslər birlikdə Tərəflər adlandırılacaq.

**2. Anlayışlar:**

2.1. Bu Müqavilədə istifadə olunan anlayışlar «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğundur. Bununla yanaşı, Tərəflər aşağıdakı anlayışları qəbul edirlər:

2.2.**Autentifikasiya sertifikatı** - Mərkəz tərəfindən təkmil sertifikatla birlikdə verilən elektron sertifikat. Autentifikasiya sertifikatı ilə istifadəçinin elektron identifikasiyası həyata keçirilir.

2.3.**Asan İmza SİM-kartı** - Elektron imza yaratma vasitələrinin təhlükəsizliyi baxımından «Elektron imza və elektron sənəd» haqqında Azərbaycan Respublikasının Qanununun və digər aidiyyəti hüquqi aktların tələblərinə uyğun gələn elektron imza vasitəsi - mobil telefon üçün xüsusi SİM-kart;

2.4.**Asan İmza PİN kodları** - Asan İmza SİM-kartın istifadəsinə imkan verən fərdi, təhlükəsiz identifikasiya nömrəsi (rəqəmlərin kombinasiyası). Asan İmza PİN kodları Asan İmza SİM-kartının üzərində çap olunaraq, pozulan qat altında gizlədilir. Şəxsiyyətin təsdiqlənməsi üçün PİN1-dən və elektron imza üçün PİN2-dən istifadə edilir.

**3. Müqavilənin predmeti:**

3.1.Müqavilənin predmetini aşağıdakı məhsul və xidmətlər təşkil edir:

3.1.1. Təqdim edilən məhsullar:

3.1.1.1. Asan İmza SİM-kartı üçün generasiya olunan autentifikasiya sertifikatı - 1 (bir) ədəd;

3.1.1.2. Təkmil sertifikat - 1 (bir) ədəd;

3.1.2. Göstərilən xidmətlər:

3.1.2.1. Autentifikasiya sertifikatının və təkmil sertifikatın (birlikdə Sertifikat adlandırılacaq) təqdim edilməsi, yoxlanılması, qüvvəsinin dayandırılması, bərpa edilməsi və ləğv edilməsi, vaxt göstəricilərinin qoyulması xidmətlərinin göstərilməsi.

3.2. Müqavilənin bağlanılmasına əsas Sertifikat əldə etmək istəyən şəxs tərəfindən forması Mərkəz tərəfindən təsdiq edilən ərizənin Mərkəzə təqdim edilməsidir. Bu ərizə Müqavilənin tərkib hissəsini təşkil edir. Ərizədə qeyd edilən məlumatların və ona əlavə edilən sənədlərin həqiqiliyinə və tamlığına görə məsuliyyəti Sertifikat əldə etmək istəyən şəxs (İmza sahibi) daşıyır.

**4. Sertifikata daxil edilən məlumatlar**

4.0. Sertifikata «Elektron imza və elektron sənəd» haqqında Azərbaycan Respublikasının Qanununun 12.1-ci maddəsində qeyd edilən məlumatlardan əlavə aşağıdakı verilənlər də daxil edilir:

4.0.1. Sertifikatın versiyası;

4.0.2. İmza alqoritmi;

4.0.3. Heş alqoritmi;

4.0.4.Sertifikatın istifadə sahələri;

4.0.5. Möhür kimi istifadə edilən gücləndirilmiş imzanın qoyulma hüququ verildikdə, bu imzanın istifadə sahəsi və möhür üzərindəki mətn.

**5. Tərəflərin hüquq və vəzifələri**

**5.1. Mərkəzin aşağıdakı hüquqları vardır:**

5.1.1. İmza sahibinə kağız və ya elektron formada sertifikat təqdim etmək;

5.1.2. «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikasının Qanununda və digər aidiyyəti hüquqi aktlarda nəzərdə tutulan sertifikat xidmətlərini göstərmək;

5.1.3. «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikasının Qanununda və digər aidiyyəti hüquqi aktlarda nəzərdə tutulan hallarda və qaydada sertifikat xidmətlərinin göstərilməsini dayandırmaq, bərpa etmək və ya ləğv etmək;

5.1.4. İmza sahibi tərəfindən qanunvericiliyin tələblərinə və ya bu Müqavilənin şərtlərinə riayət edilmədikdə, Mərkəzə və ya üçüncü şəxslərə ziyan vurulduqda, yaxud buna cəhd göstərildikdə, habelə Mərkəzin informasiya təhlükəsizliyinin təmin olunmasına yönələn bildirişlərinə riayət edilmədikdə İmza sahibinin Sertifikatının qüvvəsini dayandırmaq və ya ləğv etmək.

5.1.5. İmza sahibinin verdiyi məlumatların doğruluğunu yoxlamaq, o cümlədən Dövlət reyestrlərindən və informasiya resurslarından fərdi məlumatları almaq, habelə İmza sahibinin fərdi məlumatlarının dəyişməsini izləmək;

5.1.6. İmza sahibinin fərdi məlumatlarından Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq istifadə etmək.

**5.2. Mərkəzin aşağıdakı vəzifələri vardır:**

5.2.1. Sertifikatda göstərilən məlumatların İmza sahibinin ərizəsində olan məlumatlarla uyğunluq təşkil etməsini təmin etmək;

5.2.2. Mərkəzin fəaliyyətinin təhlükəsizliyini, habelə imza yaratma məlumatlarının və imza sahibi barəsində məlumatların mühafizəsini təmin etmək;

5.2.3. İmza sahiblərinə verilən sertifikatları mövcud qanunvericiliyə uyğun olaraq «Verilmiş sertifikatlar reyestri»nə daxil edərək dərc etmək;

5.2.4. Operativ rejimdə istifadə olunan vaxt göstəricilərinin qeyd edilməsi xidmətini təqdim etmək;

5.2.5. İmza sahibi tərəfindən ərizədə göstərilən və təkmil sertifikatda qeyd edilən məlumatlar da daxil olmaqla bütün məlumatların və onun tərəfindən yerinə yetirilən fəaliyyətlərin konfidensiallığına zəmanət vermək;

5.2.6. Sertifikatın istifadəsinə təsir edə biləcək məlumatların İmza sahibinə vaxtında çatdırılmasını təmin etmək;

5.2.7. 24 saat fəaliyyət göstərən 195 nömrəli Çağrı Mərkəzinə sertifikatın istifadəsi ilə bağlı daxil olmuş sorğuları cavablandırmaq;

5.2.8. Azərbaycan Respublikasının qanunvericiliyinə və bu Müqavilənin şərtlərinə uyğun olaraq lazımi keyfiyyətdə xidmət göstərmək.

**5.3. İmza sahibinin aşağıdakı hüquqları vardır:**

5.3.1. Bu müqavilənin predmetini təşkil edən xidmət və məhsullardan istifadə etmək;

5.3.2. Mərkəz, onların xidmətləri, imzalar, imza vasitələrinin istifadəsi və təhlükəsizlik qaydaları barədə ətraflı məlumat almaq;

5.3.3. Barəsində Mərkəzdə toplanmış məlumatlarla tanış olmaq;

5.3.4. Sertifikatın qüvvəsinin dayandırılması, bərpa edilməsi və ya ləğvi barədə qərarlarla, həmçinin Mərkəzin fəaliyyəti ilə əlaqədar digər məsələlərlə bağlı Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq şikayət vermək.

**5.4. İmza sahibinin aşağıdakı vəzifələri vardır:**

5.4.1. Mərkəz tərəfindən xidmətlərin göstərilməsi və məhsulların təqdim edilməsi üçün tələb olunan sənədləri (məlumatları) Mərkəzə təqdim etmək;

5.4.2. Ona göstərilən xidmətlərdən və təqdim edilən məhsullardan təyinatına, Azərbaycan Respublikasının qanunvericiliyinə və bu Müqaviləyə uyğun istifadə etmək;

5.4.3. Ona göstərilən xidmət və təqdim edilən məhsullar vasitəsilə bilavasitə və dolayısı ilə Mərkəzə və ya üçüncü şəxslərə vurduğu ziyanı tam şəkildə ödəmək;

5.4.4. PİN-kodlarını qorumaq, kodlara nəzarəti itirdiyi halda (məsələn itirilmə, oğurlanma) təcili olaraq kodları dəyişmək və ya əgər kodların dəyişdirilməsi mümkün deyilsə, Sertifikatın qüvvəsinin dayandırılması üçün Mərkəzə müraciət etmək;

5.4.5. Müqavilə bağlanmazdan əvvəl Sertifikatın və imza vasitələrinin istifadə qaydaları, Sertifikatın istifadə məhdudiyyətləri, Mərkəzin hüquqi statusu və akkreditə vəziyyəti, iddialara baxılma və mübahisələrin həlli barədə yazılı, aydın oxunan şəkildə məlumatlandırıldığını təsdiq etmək;

5.4.6. Sertifikatın verilməsinin sertifikat xidmətlərinin göstərilməsi üçün informasiya sistemlərinin, qurğularının və prosedurlarının təhlükəsizliyi qaydalarına uyğun gəldiyini təsdiq etmək;

5.4.7. Öz fərdi məlumatlarını Sertifikata daxil etməyə və Sertifikatdan istifadə zamanı üçüncü şəxslər üçün də onun açıq olmasına (dərc edilməsinə) icazə vermək;

5.4.8. Mərkəzə təqdim etdiyi istənilən məlumatlarda (sənədlərdə) dəyişikliklər baş verdikdə (o cümlədən, tutduğu vəzifədən azad edildikdə, yaxud təmsil etdiyi vergi ödəyicisinin (fiziki və ya hüquqi şəxsin) fəaliyyəti dayandırıldıqda və ya fəaliyyətinə xitam verildikə) bu barədə dərhal Mərkəzə, müvafiq Dövlət reyestrlərinə və informasiya resurslarına məlumat vermək.

**6. Müqavilənin qüvvəyə minməsi və qüvvədə olma müddəti:**

6.1. Müqavilə Tərəflər arasında imzalanan andan qüvvəyə minir. Autentifikasiya sertifikatının və təkmil sertifikatının etibarlılıq müddəti (qüvvədə olma müddəti) ________ tarixə kimidir. Autentifikasiya sertifikatının və imza sertifikatının etibarlılıq müddəti bitdikdə Sertifikat ləğv edilir.

6.2. Əgər Sertifikat sahibinin hər iki sertifi katı ləğv edilirsə, sonuncu sertifikat ləğv olunan andan bu müqavilə qüvvədən düşmüş hesab edilir.

6.3. İmza sahibi tərəfindən elektron imza vasitəsi ilə təsdiq edilmiş elektron sənədlərin hüquqi qüvvəsi Sertifikatın qüvvədə olması müddəti ilə bağlı deyildir və İmza sahibi həmin elektron sənədlərin yaratdığı nəticələrə görə qanunvericiliklə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyır.

6.4. İstənilən Tərəf digər Tərəfə 7 (yeddi) gün əvvəlcədən yazılı bildiriş göndərməklə bu Müqaviləyə xitam verə bilər.

6.5. Bu Müqaviləyə xitam verildikdən sonra Tərəflər Müqaviləyə xitam verilməsindən qabaq Müqavilə üzrə qəbul edilmiş öhdəlikləri tam yerinə yetirməlidir.

**7. Fors-major**

7.1. Müqavilənin imzalandığı tarixdə mövcud olmayan və nəzərdə tutulmayan, Tərəflərin nəzarətindən kənarda meydana çıxan və meydana çıxması ilə Tərəflərdən birinin və ya hər ikisinin də müqavilə ilə öhdələrinə götürdükləri vəzifələri tamamilə və vaxtında yerinə yetirmələrini qeyri-mümkün edən hallar gözlənilməyən səbəblər kimi qəbul edilir (Məsələn, yoluxucu xəstəliklər, yanğın, zəlzələ, təbii fəlakətlər, qiyam, müharibə (elan edilsin və ya edilməsin), tətil, enerjinin kəsilməsi, xammal və digər məhsulların çatışmaması və ya yoxluğu, avadanlığın nəql edilməsi zamanı tələf olması və s. gözlənilməyən səbəblər hesab olunur).

7.2. Gözlənilməyən səbəblər nəticəsində müqavilədən irəli gələn öhdəliklərini yerinə yetirə bilməyən və ya öhdəliklərini yerinə yetirməkdə gecikən Tərəf vəziyyətlə bağlı dərhal digər Tərəfə məlumat verməlidir.

7.3. Gözlənilməyən səbəbləryarandığı halda bu Müqavilənin yerinə yetirilməsi ilə əlaqədar Tərəflər qarşılıqlı məqbul saydıqları razılaşmaya nail olmağa çalışacaqlar.

7.4. Fors-majorun təsiri dayandıqda Tərəflər bir-birinə müvafiq yazılı bildiriş göndərməlidir.

7.5. Fors-majorun yaranması Tərəflərin öhdəliklərini yerinə yetirmə müddətini altı aya kimi uzadır.

7.6. Mərkəz öz sistemində zəruri və əsaslandırılmış (Məsələn, sistemin səmərəliliyinin artırılması ilə əlaqədar olaraq yeni avadanlığın quraşdırılması və ya sistemin təhlükəsizliyinin artırılması ilə əlaqədar olaraq tədbirlərin həyata keçirilməsi) profilaktik tədbirlərlə əlaqədar olaraq xidmətlərin göstərilməsini müvəqqəti (ay ərzində 24 saata qədər) dayandıra bilər. Təxirəsalınmaz profilaktik tədbirlər istisna olmaqla, digər hallarda bu tədbirlər barədə İmza sahibinə 3 (üç) gün əvvəl məlumat verilməlidir.

**8. Mübahisələrin həlli**

Bu müqavilə və ya onun tətbiq edilməsi səbəbi ilə ortaya çıxa biləcək hər bir mübahisəni Tərəflər öz aralarında danışıqlar yolu ilə həll etməyə çalışmalıdırlar. Mübahisə danışıqlar yolu ilə həll edilmədiyi halda inzibati qaydada və ya məhkəmə qaydasında həll olunmalıdır.

**9. Məhdudiyyətlər və müqaviləyə dəyişikliklərin edilməsi**

9.1. Mərkəz İmza sahibi tərəfindən müqavilə şərtlərinin və aidiyyəti qanunvericiliyin tələblərinin pozulması, Sertifikatın təyinatına uyğun istifadə edilməməsi nəticəsində İmza sahibinə və üçüncü şəxslərə vurulmuş zərərə görə məsuliyyət daşımır.

9.2. Mərkəz üçüncü şəxslər tərəfindən İmza sahibi haqqında sertifikatda göstərilən informasiyanın istifadə edilməsinə görə məsuliyyət daşımır.

9.3. Mərkəz İmza sahibi tərəfindən ona təqdim edilən məlumatların həqiqiliyinə görə, həmçinin üçüncü şəxslər tərəfindən bu Müqavilə çərçivəsində göstərilən xidmətlər üzrə İmza sahibinə aid olan məlumatların istifadə edilməsi ilə əlaqədar onlara dəyən zərərə görə məsuliyyət daşımır.

9.4. Bu Müqaviləyə və onun tərkib hissəsi olan digər sənədlərə edilən əlavələr və düzəlişlər hər iki Tərəf imzaladıqdan sonra qüvvəyə minir.

**10. Hesablaşma**

Bu müqaviləni imzalayan Tərəflər arasında xidmətin təqdim edilməsi və qəbulu ödənişsiz həyata keçirilir.

**11. Ünvanlar və əlaqə nömrələri**

| Mərkəz | İmza sahibi |
|---|---|
| Azərbaycan Respublikasının Vergilər Nazirliyi | |
| Azərbaycan Respublikası, AZ1073, Bakı şəhəri, Landau küç.,16 Tel.: (99412) 4038970 Faks: (99412) 4038971 | ____________<br>____________<br>____________ |

**12. Tərəflərin imzaları**

Azərbaycan Respublikasının
Vergilər Nazirliyinin__________
İmza/Tarix
M.Y.

İmza sahibi:________
İmza/Tarix
M.Y.

# Azərbaycan Respublikası Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi (ASXM) tərəfindən Rəqəmsal ID kartı üzrə Sertifikat xidmətlərinin göstərilməsi haqqında Müqavilə №________

**1. Müqavilənin tərəfləri:**

Sertifikat xidmətlərinin göstərilməsi haqqında müqavilə (bundan sonra - Müqavilə) bir tərəfdən Azərbaycan Respublikasının Vergilər Nazirliyi (bundan sonra - Mərkəz) adından ____________ (vəzifəsi, adı, soyadı, atasının adı) və digər tərəfdən Asan İmza Sim-karta malik olan (və ya həmin şəxsin etibarnamə üzrə nümayəndəsi) ______________(adı, soyadı, atasının adı) (bundan sonra İmza sahibi) arasında ______ tarixdə Bakı şəhərində bağlanmışdır. Bundan sonra qeyd edilən şəxslər birlikdə Tərəflər adlandırılacaq.

**2. Anlayışlar:**

**2.1.** Bu Müqavilədə istifadə olunan anlayışlar «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğundur. Bununla yanaşı, Tərəflər aşağıdakı anlayışları qəbul edirlər:

**2.2.Autentifikasiya sertifikatı** - Mərkəz tərəfindən təkmil sertifikatla birlikdə verilən elektron sertifikat. Autentifikasiya sertifikatı ilə istifadəçinin elektron identifikasiyası həyata keçirilir.

**2.3. Rəqəmsal ID kart** - Elektron imza yaratma vasitələrinin təhlükəsizliyi baxımından «Elektron imza və elektron sənəd» haqqında Azərbaycan Respublikasının Qanununun və digər aidiyyəti hüquqi aktların tələblərinə uyğun gələn elektron imza vasitəsi - smart (prosessorlu) kart;

**2.4. PİN** - Rəqəmsal ID kartın istifadəsinə imkan verən fərdi, təhlükəsiz identifikasiya nömrəsi (rəqəmlərin kombinasiyası).

**2.5. PUK**- PİN kodun yanlış daxil edilməsi zamanı kartın blokdan çıxarılması üçün nəzərdə tutulan əlavə kod.

**3. Müqavilənin predmeti:**

3.1.Müqavilənin predmetini aşağıdakı məhsul və xidmətlər təşkil edir:

3.1.1. Təqdim edilən məhsullar:

3.1.1.1. Rəqəmsal ID karta aid olan PİN və PUK kodlu zərf- 1 (bir) ədəd;

3.1.1.2. Rəqəmsal ID kart üçün generasiya olunan autentifikasiya sertifikatı- 1 (bir) ədəd;

3.1.1.3. Təkmil sertifikat - 1 (bir) ədəd;

3.1.2. Göstərilən xidmətlər:

3.1.2.1. Autentifikasiya sertifikatının və təkmil sertifikatın (birlikdə Sertifikat adlandırılacaq) təqdim edilməsi, yoxlanılması, qüvvəsinin dayandırılması, bərpa edilməsi və ləğv edilməsi, vaxt göstəricilərinin qoyulması xidmətlərinin göstərilməsi.

3.2. Müqavilənin bağlanılmasına əsas Sertifikat əldə etmək istəyən şəxs tərəfindən forması Mərkəz tərəfindən təsdiq edilən ərizənin Mərkəzə təqdim edilməsidir.Bu ərizə Müqavilənin tərkib hissəsini təşkil edir. Ərizədə qeyd edilən məlumatların və ona əlavə edilən sənədlərin həqiqiliyinə və tamlığına görə məsuliyyəti Sertifikat əldə etmək istəyən şəxs (və ya İmza sahibi) daşıyır.

**4. Sertifikata daxil edilən məlumatlar**

4.0. Sertifikata «Elektron imza və elektron sənəd» haqqında Azərbaycan Respublikasının Qanununun 12.1-ci maddəsində qeyd edilən məlumatlardan əlavə aşağıdakı verilənlər də daxil edilir:

4.0.1. Sertifikatın versiyası;

4.0.2. İmza alqoritmi;

4.0.3. Heş alqoritmi;

4.0.4. Möhür kimi istifadə edilən gücləndirilmiş imzanın qoyulma hüququ verildikdə, bu imzanın istifadə sahəsi və möhür üzərindəki mətn.

**5. Tərəflərin hüquq və vəzifələri**

**5.1. Mərkəzin aşağıdakı hüquqları vardır:**

5.1.1. İmza sahibinə kağız və ya elektron formada sertifikat təqdim etmək;

5.1.2. «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikasının Qanundavə digər aidiyyəti hüquqi aktlarda nəzərdə tutulan sertifikat xidmətlərini göstərmək;

5.1.3. «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikasının Qanununda və digər aidiyyəti hüquqi aktlarda nəzərdə tutulan hallarda və qaydada sertifikat xidmətlərinin göstərilməsini dayandırmaq, bərpa etmək və ya ləğv etmək;

5.1.4. İmza sahibi tərəfindən qanunvericiliyin tələblərinə və ya bu Müqavilənin şərtlərinə riayət edilmədikdə, Mərkəzə vəyaüçüncü şəxslərə ziyan vurulduqda, yaxudbuna cəhd göstərildikdə, Mərkəzin informasiya təhlükəsizliyinin təmin olunmasına yönələn bildirişlərinə riayət edilmədikdə İmza sahibinin Sertifikatının qüvvəsini dayandırmaq və ya ləğv etmək.

5.1.5. İmza sahibinin verdiyi məlumatların doğruluğunu yoxlamaq, o cümlədən Dövlət reyestrlərindən və informasiya resurslarından fərdi məlumatları almaq, habelə İmza sahibinin fərdi məlumatlarının dəyişməsini izləmək;

5.1.6. İmza sahibinin fərdi məlumatlarından Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq istifadə etmək.

**5.2. Mərkəzin aşağıdakı vəzifələri vardır:**

5.2.1. Sertifikatda göstərilən məlumatların İmza sahibinin ərizəsində olan məlumatlarla uyğunluq təşkil etməsini təmin etmək;

5.2.2. Mərkəzin fəaliyyətinin təhlükəsizliyini, habelə imza yaratma məlumatlarının və imza sahibi barəsində məlumatların mühafizəsini təmin etmək;

5.2.3. İmza sahiblərinə verilən sertifikatları mövcud qanunvericiliyə uyğun olaraq «Verilmiş sertifikatlar reyestri»nə daxil edərək dərc etmək;

5.2.4. Operativ rejimdə istifadə olunan vaxt göstəricilərinin qeyd edilməsi xidmətini təqdim etmək;

5.2.5. İmza sahibi tərəfindən ərizədə göstərilən və təkmil sertifikatda qeyd edilən məlumatlar da daxil olmaqla bütün məlumatların və onun tərəfindən yerinə yetirilən fəaliyyətlərin konfidensiallığına zəmanət vermək;

5.2.6. Sertifikatın istifadəsinə təsir edə biləcək məlumatların İmza sahibinə vaxtında çatdırılmasını təmin etmək;

5.2.7. 24 saat fəaliyyət göstərən 195 nömrəli Çağrı Mərkəzinə sertifikatın istifadəsi ilə bağlı daxil olmuş sorğuları cavablandırmaq;

5.2.8. Azərbaycan Respublikasının qanunvericiliyinə və bu Müqavilənin şərtlərinə uyğun olaraq lazımi keyfiyyətdə xidmət göstərmək.

**5.3. İmza sahibinin aşağıdakı hüquqları vardır:**

5.3.1. Bu müqavilənin predmetini təşkil edən xidmət və məhsullardan istifadə etmək;

5.3.2. Mərkəz, onların xidmətləri, imzalar, imza vasitələrinin istifadəsi və təhlükəsizlik qaydaları barədə ətraflı məlumat almaq;

5.3.3. Barəsində Mərkəzdə toplanmış məlumatlarla tanış olmaq;

5.3.4. Sertifikatın qüvvəsinin dayandırılması, bərpa edilməsi və ya ləğvi barədə qərarlarla, həmçinin Mərkəzin fəaliyyəti ilə əlaqədar digər məsələlərlə bağlı Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq şikayət vermək.

**5.4. İmza sahibinin aşağıdakı vəzifələri vardır:**

5.4.1. Mərkəz tərəfindən xidmətlərin göstərilməsi və məhsulların təqdim edilməsi üçün tələb olunan sənədləri (məlumatları) Mərkəzə təqdim etmək;

5.4.2. Ona göstərilən xidmətlərdən və təqdim edilən məhsullardan təyinatına, Azərbaycan Respublikasının qanunvericiliyinə və bu Müqaviləyə uyğun istifadə etmək;

5.4.3. Ona göstərilən xidmət və təqdim edilən məhsullar vasitəsilə bilavasitə və dolayısı ilə Mərkəzə və ya üçüncü şəxslərə vurduğu ziyanı tam şəkildə ödəmək;

5.4.4. PİN-kodlarını qorumaq, kodlara nəzarəti itirdiyi halda (məsələn itirilmə, oğurlanma) təcili olaraq kodları dəyişmək və ya əgər kodların dəyişdirilməsi mümkün deyilsə, Sertifikatın qüvvəsinin dayandırılması üçün Mərkəzə müraciət etmək;

5.4.5. Müqavilə bağlanmazdan əvvəl Sertifikatın və imza vasitələrinin istifadə qaydaları, Sertifikatın istifadə məhdudiyyətləri, Mərkəzin hüquqi statusu və akkreditə vəziyyəti, iddialara baxılma və mübahisələrin həlli barədə yazılı, aydın oxunan şəkildə məlumatlandırıldığını təsdiq etmək;

5.4.6. Sertifikatın verilməsinin sertifikat xidmətlərinin göstərilməsi üçün informasiya sistemlərinin, qurğularının və prosedurlarının təhlükəsizliyi qaydalarına uyğun gəldiyini təsdiq etmək;

5.4.7. Öz fərdi məlumatlarını Sertifikata daxil etməyə və Sertifikatdan istifadə zamanı üçüncü şəxslər üçün də onun açıq olmasına (dərc edilməsinə) icazə vermək;

5.4.8. Mərkəzə təqdim etdiyi istənilən məlumatlarda (sənədlərdə) dəyişikliklər baş verdikdə (o cümlədən, tutduğu vəzifədən azad edildikdə, yaxud təmsil etdiyi vergi ödəyicisinin (fiziki və ya hüquqi şəxsin) fəaliyyəti dayandırıldıqda və ya fəaliyyətinə xitam verildikə) bu barədə dərhal Mərkəzə, müvafiq Dövlət reyestrlərinə və informasiya resurslarına məlumat vermək.

**6. Müqavilənin qüvvəyə minməsi və qüvvədə olma müddəti:**

6.1. Müqavilə Tərəflər arasında imzalanan andan qüvvəyə minir. Autentifikasiya sertifikatının və təkmil sertifikatının etibarlılıq müddəti (qüvvədə olma müddəti) ________ tarixə kimidir. Autentifikasiya sertifikatının və imza sertifikatının etibarlılıq müddəti bitdikdə Sertifikat ləğv edilir.

6.2. Əgər Sertifikat sahibinin hər iki sertifikatı ləğv edilirsə, sonuncu sertifikat ləğv olunan andan bu müqavilə qüvvədən düşmüş hesab edilir.

6.3. İmza sahibi tərəfindən elektron imza vasitəsi ilə təsdiq edilmiş elektron sənədlərin hüquqi qüvvəsi Sertifikatın qüvvədə olması müddəti ilə bağlı deyildir və İmza sahibi həmin elektron sənədlərin yaratdığı nəticələrə görə qanunvericiliklə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyır.

6.4. İstənilən Tərəf digər Tərəfə 7 (yeddi) gün əvvəlcədən yazılı bildiriş göndərməklə bu Müqaviləyə xitam verə bilər.

6.5. Bu Müqaviləyə xitam verildikdən sonra Tərəflər Müqaviləyə xitam verilməsindən qabaq Müqavilə üzrə qəbul edilmiş öhdəlikləri tam yerinə yetirilməlidir.

**7. Fors-major**

7.1. Müqavilənin imzalandığı tarixdə mövcud olmayan və nəzərdə tutulmayan, Tərəflərin nəzarətindən kənarda meydana çıxan və meydana çıxması ilə Tərəflərdən birinin və ya hər ikisinin də müqavilə ilə öhdələrinə götürdükləri vəzifələri tamamilə və vaxtında yerinə yetirmələrini qeyri-mümkün edən hallar gözlənilməyən səbəblər kimi qəbul edilir (Məsələn, yoluxucu xəstəliklər, yanğın, zəlzələ, təbii fəlakətlər, qiyam, müharibə (elan edilsin və ya edilməsin), tətil, enerjinin kəsilməsi, xammal və digər məhsulların çatışmaması və ya yoxluğu, avadanlığın nəql edilməsi zamanı tələf olması və s. gözlənilməyən səbəblər hesab olunur).

7.2. Gözlənilməyən səbəblər nəticəsində müqavilədən irəli gələn öhdəliklərini yerinə yetirə bilməyən və ya öhdəliklərini yerinə yetirməkdə gecikən Tərəf vəziyyətlə bağlı dərhal digər Tərəfə məlumat verməlidir.

7.3. Gözlənilməyən səbəbləryarandığı halda bu Müqavilənin yerinə yetirilməsi ilə əlaqədar Tərəflər qarşılıqlı məqbul saydıqları razılaşmaya nail olmağa çalışacaqlar.

7.4. Fors-majorun təsiri dayandıqda Tərəflər bir-birinə müvafiq yazılı bildiriş göndərməlidir.

7.5. Fors-majorun yaranması Tərəflərin öhdəliklərini yerinə yetirmə müddətini altı aya kimi uzadır.

7.6. Mərkəz öz sistemində zəruri və əsaslandırılmış (Məsələn, sistemin səmərəliliyinin artırılması ilə əlaqədar olaraq yeni avadanlığın quraşdırılması və ya sistemin təhlükəsizliyinin artırılması ilə əlaqədar olaraq tədbirlərin həyata keçirilməsi) profilaktik tədbirlərlə əlaqədar olaraq xidmətlərin göstərilməsini müvəqqəti (ay ərzində 24 saata qədər) dayandıra bilər. Təxirəsalınmaz profilaktik tədbirlər istisna olmaqla, digər hallarda bu tədbirlər barədə İmza sahibinə 3 (üç) gün əvvəl məlumat verilməlidir.

**8. Mübahisələrin həlli**

Bu müqavilə və ya onun tətbiq edilməsi səbəbi ilə ortaya çıxa biləcək hər bir mübahisəni Tərəflər öz aralarında danışıqlar yolu ilə həll etməyə çalışmalıdırlar. Mübahisə danışıqlar yolu ilə həll edilmədiyi halda inzibati qaydada və ya məhkəmə qaydasında həll olunmalıdır.

**9. Məhdudiyyətlər və müqaviləyə dəyişikliklərin edilməsi**

9.1. Mərkəz İmza sahibi tərəfindən müqavilə şərtlərinin və aidiyyəti qanunvericiliyin tələblərinin pozulması, Sertifikatın təyinatına uyğun istifadə edilməməsi nəticəsində İmza sahibinə və üçüncü şəxslərə vurulmuş zərərə görə məsuliyyət daşımır.

9.2. Mərkəz üçüncü şəxslər tərəfindən İmza sahibi haqqında sertifikatda göstərilən informasiyanın istifadə edilməsinə görə məsuliyyət daşımır.

9.3. Mərkəz İmza sahibi tərəfindən ona təqdim edilən məlumatların həqiqiliyinə görə, həmçinin üçüncü şəxslər tərəfindən bu Müqavilə çərçivəsində göstərilən xidmətlər üzrə İmza sahibinə aid olan məlumatların istifadə edilməsi ilə əlaqədar onlara dəyən zərərə görə məsuliyyət daşımır.

9.4. Bu Müqaviləyə və onun tərkib hissəsi olan digər sənədlərə edilən əlavələr və düzəlişlər hər iki Tərəf imzaladıqdan sonra qüvvəyə minir.

**10. Hesablaşma**

Bu müqaviləni imzalayan Tərəflər arasında xidmətin təqdim edilməsi və qəbulu ödənişsiz həyata keçirilir.

**11. Ünvanlar və əlaqə nömrələri**

| Mərkəz | İmza sahibi |
|---|---|
| Azərbaycan Respublikasının Vergilər Nazirliyi | |
| Azərbaycan Respublikası,<br>AZ1073, Bakı şəhəri,<br>Landau küç.,16<br>Tel.: (99412) 4038970<br>Faks: (99412) 4038971 | ______________<br>______________<br>______________ |

**12. Tərəflərin imzaları**

Azərbaycan Respublikasının
Vergilər Nazirliyinin__________
İmza/Tarix
M.Y.

İmza sahibi:________
İmza/Tarix
M.Y.

*Ərizə - 1*

# Azərbaycan Respublikası Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi (ASXM) tərəfindən Sertifikat xidmətlərinin göstərilməsi haqqında Müqavilənin bağlanılması üçün ərizə

Ərizə №____
Tarix____

**1.Elektron daşıyıcı tipi**

| |
|---|
| 1.1. ASAN İMZA SİM-KART □ |
| 1.1.1. ASAN İMZA SİM-KARTINA BAĞLI TELEFON NÖMRƏSİ: (+994 _______ ) |
| 1.1.2. ASAN İMZA SİM-KARTININ ICCID- si: |
| 1.2. RƏQƏMSAL İD KART □ |

**2.Sertifikatdan istifadə sahələri**

| |
|---|
| 2.1. ŞƏXSİ İSTİFADƏ İLƏ BAĞLI □ |
| 2.2. ƏRİZƏÇİ VERGİ ÖDƏYİCİSİ OLAN FİZİKİ ŞƏXSİN ÖZÜ VƏ YA İŞÇİSİ, HƏMÇİNİN HÜQUQİ ŞƏXSİN (MÜƏSSİSƏ, TƏŞKİLAT, QURUM, FİLİAL, NÜMAYƏNDƏLİK, BÖLMƏ VƏ S.) İŞÇİSİ OLDUQDA HƏMİN FƏALİYYƏTLƏ BAĞLI □ |
| 2.3. ƏRİZƏÇİ DÖVLƏT HAKİMİYYƏTİ VƏ YA YERLİ ÖZÜNÜİDARƏETMƏ ORQANLARININ İŞÇİSİ OLDUQDA, HƏMİN FƏALİYYƏTLƏ BAĞLI □ |

**3.Ərizəçi barədə məlumatlar**

| | |
|---|---|
| 3.1. ADI | |
| 3.2. SOYADI | |
| 3.3. ATASININ ADI | |
| 3.4. İSTİFADƏÇİ İD-Sİ | |
| 3.5. ŞƏXSİYYƏTİNİ TƏSDİQ EDƏN SƏNƏDİN SERİYA VƏ NÖMRƏSİ | |
| 3.6. ŞƏXSİYYƏTİNİ TƏSDİQ EDƏN SƏNƏDİN FİN KODU | |
| 3.7. VÖEN OLDUQDA, VÖEN-İ | |
| 3.8. TELEFON NÖMRƏSİ | |
| 3.9. POÇT ÜNVANI | |
| 3.10.ELEKTRON POÇT ÜNVANI | |
| 3.11.GİZLİ SUAL | |
| 3.12. GİZLİ SUALA CAVAB (PAROL) | |
| 3.13. ƏRİZƏÇİNİN ADINDAN ONUN ETİBARNAMƏ ÜZRƏ NÜMAYƏNDƏSİ MÜRACİƏT ETDİKDƏ, ONUN: | |
| 3.13.1. ADI, SOYADI, ATASININ ADI | |
| 3.13.2. TELEFON NÖMRƏSİ | |
| 3.13.3. POÇT ÜNVANI | |
| 3.13.4. ELEKTRON POÇT ÜNVANI | |

**4.Digər məlumatlar (2.2-ci və ya 2.3-cü bənd işarələndikdə doldurulur)**

| | |
|---|---|
| 4.1. 2.2-Cİ VƏ YA 2.3-CÜ BƏNDLƏRDƏ QEYD EDİLMİŞ VERGİ ÖDƏYİCİSİNİN (HÜQUQİ VƏ YA FİZİKİ ŞƏXSİN, HƏMÇİNİN DÖVLƏT HAKİMİYYƏTİ VƏ YA YERLİ ÖZÜNÜİDARƏETMƏ ORQANININ) ADI | |
| 4.2. 2.2-Cİ VƏ YA 2.3-CÜ BƏNDLƏRDƏ QEYD EDİLMİŞ VERGİ ÖDƏYİCİSİNİN (HÜQUQİ VƏ YA FİZİKİ ŞƏXSİN, HƏMÇİNİN DÖVLƏT HAKİMİYYƏTİ VƏ YA YERLİ ÖZÜNÜİDARƏETMƏ ORQANININ) VÖEN-İ | |
| 4.3. ƏRİZƏÇİNİN ÇALIŞDIĞI STRUKTUR VAHİDİN ADI | |
| 4.4. ƏRİZƏÇİNİN VƏZİFƏSİ | |
| 4.5. MÖHÜR KİMİ İSTİFADƏ EDİLƏN GÜCLƏNDİRİLMİŞ İMZANIN QOYULMA HÜQUQU VERİLDİKDƏ: | |
| 4.5.1. BU İMZANIN İSTİFADƏ SAHƏSİ | |
| 4.5.2. MÖHÜR ÜZƏRİNDƏKİ MƏTN | |

**5. Mərkəz tərəfindən məlumat və bildirişlərin (sənədlərin) göndərilməsi**

| | |
|---|---|
| 5.1. POÇT ÜNVANINA | |
| 5.2. ELEKTRON POÇT ÜNVANINA | |
| 5.3. HƏR İKİSİNƏ | |

**6. Ərizəçinin raziliği**

Bu ərizəni imzalayaraq aşağıdakıları təsdiq edirəm:

- sertifikat xidmətlərinin göstərilməsi qaydaları ilə tanış oldum və onların yerinə yetirilməsi ilə bağlı öhdəlikləri qəbul edirəm və təsdiqləyirəm;
- təqdim etdiyim məlumatlar (sənədlər) düzgündür və onların həqiqiliyinin yoxlanılmasına razıyam;
- fərdi məlumatlarımın sertifikata daxil edilməsinə və onların sertifikatın istifadəsi ilə əlaqədar olaraq yayılmasına icazə verirəm.

Adı, soyadı, atasının adı____________ İmza_________

***Qeyd:**

1. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:
- ərizəçinin şəxsiyyətini təsdiq edən sənədin surəti;
